Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 226 (7953) ÇƏRŞƏNBƏ AXŞAMI, 9 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## “Evimizə qəhrəman kimi qayıdacağıq”

*Ən çətin döyüş tapşırığının öhdəsindən layiqincə gəlməyə hazır olan vətənpərvər əsgərlərimizin qələbə əzmi çox yüksəkdir*

...Ön xətdən böyük qürur hissi ilə ayrılıb atəş mövqeyindən görünməyən, səngərdən bir qədər aralıda yerləşən hərbi hissəyə gəlirik. O hərbi hissə ki, ordumuzun aprel zəfərində böyük şücaət göstərərək adını hərb tariximizin şanlı səhifəsinə yazdırıb.



### 26 illik döyüş yolu, 4 Milli Qəhrəman

Alayda sakitlikdir. Əməliyyat növbətçisi zabit Sadiq Veysəlov bunun səbəbini izah edərək deyir ki, oktyabrın ilk həftəsidir, xidmətini başa vurmuş hərbçiləri gənc əsgərlər əvəzləyib. Hazırda yeni xidmətə başlayan əsgərlərin hərbi hissəyə uyğunlaşma prosesi gedir.

Amma iki gün öncə burada olsaydıq, tam başqa mənzərəyə şahidlik edə bilərdik. Oktyabr ayının 1-ində hərbi hissənin yaranma günü imiş. 1992-ci ildə yaradılan alayın 26 illik döyüş yolu böyük təmtəraqla qeyd edilib.

Hazırda ərazisində müşahidələr apardığımız bu hərbi hissənin mərd oğulları iki il öncə Lələtəpə yüksəkliyinin düşmən tapdağından azad edilməsində əsl qəhrəmanlıq nümayiş etdiriblər. Azərbaycan Ordusunun böyük zəfər qazandığı bu döyüşlərdə 16 şəhid verən hərbi hissənin 4 Milli Qəhrəmanı var. 9 hərbçi “Azərbaycan bayrağı” ordeni, 4 hərbçi “Vətən uğrunda”, 26 hərbçi isə “İgidliyə görə” medalla təltif olunub. Bu, həqiqətən, hərbi hissə üçün böyük zəfərdir desək, yanılmarıq.

### Səliqə-sahman, təmizlik, yüksək səviyyəli təminat

Hərbi hissənin ərazisi ilə tanış oluruq. Burada qərargah, kazarmalar, yeməkxana, hamam, qazanxana və hərbi hissəyə təşrif buyuranlar üçün qonaq otaqları mövcuddur. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün idman şəhərciyi də salınıb.

Qərargah binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını, hərbçilərlə görüşlərini əks etdirən və hərbi hissənin aprel döyüşlərində şəhid olan igid oğulların, eyni zamanda, Azərbaycanın bütün Milli Qəhrəmanlarının fotolarından ibarət guşə yaradılıb.

Hərbi hissənin əsgər kazarmalarındakı səliqə-sahmana, təmizliyə də söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə onların yaradıcılıq nümunələri, divar qəzeti, aprel döyüşlərində şəhid olan hərbi qulluqçuların, Milli Qəhrəmanların fotoları, hərbi qaydalar haqqında stendlər asılıb.

Kazarmada müasir istilik sistemi quraşdırılıb. Əsgər çarpayıları isə əvvəlkilərdən fərqli olaraq, daha yüksək keyfiyyətli döşəklərlə və yastıqla təchiz olunub. Eyni zamanda, hərbçilərin televiziya vasitəsilə verilişləri izləmələri təmin edilib.

### Gənc əsgərlər hərbi hissəyə uyğunlaşma prosesi keçirlər

Diqqətimizi daha çox çəkən isə əsgər kazarmaları, eləcə də gənc əsgərlərlə aparılan uyğunlaşma prosesi olur. Gənc əsgərlər istirahət üçün yaradılan dairəvi stollarda əyləşib diqqətlə komandirlərin təlimatlarına qulaq asırlar.

Bölük komandiri zabit Abbas Səfərov əsgərlərə hərbi hissədəki nizam-intizam qaydaları, komandanlıq barədə ətraflı məlumatlar verir.

Ardı 3-cü səh.

## Strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlət başçısı Vladimir Putinə ad günü münasibətilə səmimi qəlbdən təbriklərini çatdırıb, ona Rusiya xalqının firavanlığı naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm can-sağlığı arzulayıb.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin mətbuat xidməti***



## Heydər Əliyev Fondu Azərbaycanın tarixini və mədəni irsini beynəlxalq miqyasda layiqincə tanıdır



Azərbaycanın “Milan Expo 2015” Ümumdünya sərgisindəki milli pavilyonu sökülərək Bakıya gətirilib və Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulub.

AZƏRTAC xəbər verir ki, oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva pavilyonla tanış olublar.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yenidən qurulan pavilyondakı şərait barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi.

Qeyd edək ki, bu bina Dənizkənarı Milli Parkın ərazisində bütün fəsillərdə daimi istifadəyə uyğunlaşdırılıb. Burada Azərbaycan mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb, terras qurulub.

Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə “Milan Expo 2015” Ümumdünya sərgisində milli pavilyonla iştirak edib.

Ardı 2-ci səh.

## Azərbaycanda müxtəlif xalqların əmin-amanlıqda yaşamaları üçün hər cür şərait yaradılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mark Şnayer Prezident İlham Əliyevlə Bakıda və ABŞ-da keçirdikləri görüşləri məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycanda müxtəlif xalqların və etnik qrupların, o cümlədən yəhudi icması nümayəndələrinin dinc yanaşı və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olundu, onların Azərbaycanın ictimai həyatında fəal iştirak etdiyi vurğulandı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi qeyd olundu.



## Dövlət dəstəyi səmərəsiz qalmır

*Azərbaycanda müasir aqrar-sənaye komplekslərinin yaradılması sürətlənir*

Məlum olduğu kimi, ölkədə həyata keçirilən iqtisadi inkişaf strategiyasında aqrar sektor önəmli yer tutur. Əhalinin 48 faizindən çoxunun yaşadığı və çalışdığı regionlarda son dövrlər aqrar sektorla bağlı dərin islahatlar keçirilir, sahəyə verilən dövlət dəstəyi artırılır. Təkcə bir faktı qeyd edək ki, indiyədək verilən güzəştli kreditlərin 80 faizindən regionlarda fəaliyyət göstərən sahibkarlar faydalanıblar.

Bu hesaba aqrar sektorda ənənəvi sahələrin dirçəldilməsi məhsul istehsalının artımına əməlli-başlı təkan verib. Son bir neçə ildə pambıq, tütün, fındıq, barama, düyü, xurma istehsalının genişləndirilməsi idxalda da özünü göstərir, özü də faizlə deyil, dəfələrlə. Bu, fermerlərin gəlirlərini də artırır. Nəticədə, kəndli belə sahələrə daha çox meyil edir.

Ölkədə həyata keçirilən aqrar siyasətin əsas istiqamətlərindən biri də bu sahənin müasir dövrün tələblərinə uyğun modern texnika və texnologiyalarla təmin etməkdir. Artıq bu sahədə xeyli işlər görülüb. Dünyanın qabaqcıl şirkətlərinin istehsal etdiyi müxtəlif texnikalar kənd təsərrüfatında çalışan sahibkarların ixtiyarına verilib. Onu da qeyd edək ki, texnikalar istehsalçılara dəyərindən ucuz və güzəştli şərtlərlə satılır. Üstəlik, buna imkanı çatmayan fermerlərə aqroservislər vasitəsilə kömək göstərilir.

Prezident İlham Əliyev bununla əlaqədar demişdir: “Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illər kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texniki parkımızı tamamilə yeniləmişik... Təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq. Keçən il 10 min texnika alınmışdır... Bəzilərində belə təsəvvür var ki, kənd təsərrüfatı, necə deyərlər, elə əvvəlki qayda ilə inkişaf edə bilər. Bu, qətiyyən belə deyil. Bu gün dünyada elə texnologiyalar var ki, məhsuldarlığı bir neçə dəfə artırır”.

İqtisadiyyatın aparıcı sahələrindən biri olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması istiqamətində də işlər davam edir. Bu məqsədlə aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət vəsaiti ilkin investisiya kimi qoyulub. Bundan başqa, dövlət tərəfindən 111 milyon manat güzəştli kredit və dəyəri 564 milyon manat olan 25 layihə investisiya təşviqi sənədi verilib.

Ardı 2-ci səh.

# Heydər Əliyev Fondu Azərbaycanın tarixini və mədəni irsini beynəlxalq miqyasda layiqincə tanıdır

*Əvvəli 1-ci səh.*











Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialı və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən "Milan Expo 2015" sərgisini 23 milyondan çox insan ziyarət edib. Bu müddətdə Azərbaycanın milli pavilyonunda isə 3 milyon 250 mindən çox izləyici olub. "Azərbaycan: biomüxtəlifliyin xəzinəsi" adlandırılan dördmərtəbəli milli pavilyon Milanda 1800 kvadratmetr ərazidə təşkil olunmuşdu. Azərbaycan "Milan Expo 2015" Ümumdünya sərgisinin bütün mərhələlərində seçilən dövlətlər sırasında olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz "Milan Expo" sərgisinin incisi adlandırılıb. Milli pavilyonun əsas özəlliyindən biri onun 3 biosferdən təşkil olunması idi. Diametri 10 metr olan xüsusi şüşə konstruksiyalarından hazırlanmış biosferlər ətraf mühiti və qədim mədəniyyəti daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdirib.

Sərgi müddətində pavilyonun dördüncü mərtəbəsində restoran fəaliyyət göstərib. Burada Azərbaycan milli mətbəxinin nümunələri və konsert proqramları təqdim olunub. Pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya incilərinə, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilib. Ziyarətçilər, həmçinin Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyi, nadir landşaftları, təbii ehtiyat və tarixi abidələri əks etdirən videoçarxları izləyiblər. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu "Milan Expo 2015" Təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunub. Təşkilat Komitəsi Azərbaycan pavilyonunun tərtibatında günəş şüalarını azaldan şüşə, metal və taxta sistemlərinin innovativ qaydada işlənilməsinin ekoloji baxımdan əhəmiyyətli olduğunu və dizayn elementlərinin seçildiyini qeyd edib. Bir sözlə, pavilyonumuz ekoloji təmiz, asan emal edilən materiallardan inşa olunub.

Burada "Dubay Expo 2020" sərgisində qurulacaq Azərbaycan milli pavilyonunun layihəsi Prezident İlham Əliyevə təqdim olundu. Layihə ilə tanış olan dövlət başçısı "Dubay Expo 2020" sərgisindəki milli pavilyonun tikintisinə başlanılmasına dair müvafiq tapşırıqlar verdi. Eyni zamanda, dövlət başçısı "Dubay Expo 2020" sərgisindəki milli pavilyonun da sərgidən sonra sökülərək ölkəmizə gətirilməsi məsələsinə baxılmasına dair tapşırıq verdi.

Qeyd edək ki, "Milan Expo 2015" Ümumdünya sərgisindən sonra sökülərək Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan milli pavilyonumuzun inzibati binası 4 mərtəbədən ibarətdir və 6 min kvadratmetr ərazisi var. Burada, eyni zamanda, sakinlər, eləcə də şəhərimizin qonaqlarının istirahəti üçün əlavə olaraq 4 min kvadratmetrə yaxın ərazidə müxtəlif ağac və bitki növlərindən ibarət yaşıllıq zolaqları da salınıb, istirahət üçün sahələr yaradılıb. Ərazidəki torpaq münbitləşdirilib, müasir işıqlandırma sistemi quraşdırılıb, meydançalar yaradılıb, avtomobil və velosipedlərin parklanması üçün dayanacaq sahəsi ayrılıb. Pavilyon sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.

"Milan Expo 2015" Ümumdünya sərgisindəki Azərbaycanın milli pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirib. Onun yaradılmasında hər bir detala xüsusi diqqət yetirilib. Pavilyonun dalğavari taxta divarları Azərbaycana xas olan küləyi, həmişə burada dövr edən mədəni və yaradıcı axını simvolizə edib.

## *Mun Hi-sanq:* "Azərbaycan ilə Koreyanı oxşar mədəniyyət və dəyərlər birləşdirir"



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Türkiyənin Antalya şəhərində Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanq ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısı çərçivəsində keçirilən görüşdə nümayəndə heyətimizi səmimiyyətlə salamlayan Koreya parlamentinin sədri Mun Hisanq Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də Cümhuriyyət parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb. Azərbaycan-Koreya münasibətlərinin 25 illik inkişaf dinamikasını yüksək dəyərləndirən spiker qeyd edib ki, Azərbaycan tarixi İpək yolunun bərpasında və genişlənməsində aparıcı rola malikdir. Ölkələrimiz coğrafi baxımdan uzaq olsalar da, onları oxşar mədəniyyət və dəyərlər birləşdirir.

Təbrikə və səmimi sözlərə görə Koreya parlamentinin sədri Mun Hi-sanqa təşəkkürünü ifadə edən Milli Məclisin Sədri Oqtay Əsədov ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluğunu bildirib. O qeyd edib ki, Azərbaycan və Koreya arasında müştərək komissiyaların fəaliyyəti, birgə biznes forumların təşkili əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün böyük imkanlar yaradır. Azərbaycanın qeyri-neft sektorundakı inkişaf istiqamətləri barədə məlumat verən Milli Məclisin Sədri Oqtay Əsədov vurğulayıb ki, ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu və "Şimal-Cənub nəqliyyat dəhlizi" böyük perspektivə malikdir. Azərbaycan və Koreya şirkətləri birgə layihələr həyata keçirirlər. Azərbaycan xarici sərmayələr üçün açıqdır və bunun üçün ölkəmizdə münbit şərait yaradılıb.

Görüşdə, həmçinin Azərbaycan-Koreya əlaqələrinin inkişafı istiqamətində qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən Koreya yarımadasındakı mövcud siyasi vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsinə dair fikir mübadiləsi aparılıb.

## Antalyada TürkPA-ya üzv ölkələrin parlament sədrlərinin görüşü keçirilib






Oktyabrın 8-də Türkiyənin Antalya şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasına (TürkPA) üzv ölkələrin parlament sədrlərinin növbəti görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Milli Məclisin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edib.

Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısı çərçivəsində keçirilən görüşdə çıxış edən Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Binəli Yıldırım TürkPA-nın hədəflərindən danışıb. Türkiyə parlamentinin sədri qeyd edib ki, əsas məqsədlərdən biri babalarımızdan miras qalan qardaşlıq dəyərlərini yaşatmaq və gələcək nəsillərə çatdırmaqdır. TürkPA-nın baş katibi Altınbek Mamayusupovu bu vəzifəyə seçilməsi münasibətilə təbrik edən Binəli Yıldırım əminliklə bildirib ki, yeni baş katib təşkilatın fəaliyyətinin daha səmərəli qurulması üçün böyük səylər göstərəcək. TBMM-in sədri noyabrın 21-22-də Türkiyənin İzmir şəhərində keçirilməsi planlaşdırılan Türkdilli Ölkələrin Parlament Assambleyasının iclasında faydalı müzakirələrin aparılacağına, əhəmiyyətli qərarların qəbul olunacağına inamını ifadə edib. Binəli Yıldırım təşkilat üzvlərinin yaxın gələcəkdə Özbəkistan və Türkmənistanı da TürkPA sıralarında görmək istədiklərini söyləyib.

TürkPA-nın mərkəzi qərargahının Bakı şəhərində yerləşdiyini xatırladan Milli Məclisin Sədri Oqtay Əsədov təşkilatın səmərəli fəaliyyəti üçün bütün şəraitin yaradıldığını bildirib. Azərbaycan parlamentinin sədri qeyd edib ki, bu il TürkPA-nın yaranmasının 10-cu ildönümü tamam olur. Ötən dövrdə TürkPA bir sıra beynəlxalq təşkilatların məşvərətçi üzvü olub və beynəlxalq aləmdə mövqelərini gücləndirib. Böyük perspektivə malik olan Türkdilli Ölkələrin Parlament Assambleyası bu müddətdə bir sıra mühüm layihələr həyata keçirib.

Sonra digər ölkələrin parlament rəhbərləri də TürkPA-nın fəaliyyəti ilə bağlı fikir və mülahizələrini bölüşüblər. Təşkilatın reallaşdırdığı layihələr yüksək dəyərləndirilib və əminlik ifadə olunub ki, TürkPA bundan sonra da fəaliyyətini dinamik məcrada davam etdirəcək.

## Bankların real sektora dəstəyini artırmaq üçün qanunvericilik təkmilləşdirilir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin oktyabrın 8-də keçirilən iclasında ikinci oxunuşda 8 məsələ müzakirə edildi.

Komitənin sədri Ziyad Səmədzadə dedi ki, qanun layihələrində təklif olunan dəyişikliklərin əhəmiyyətli hissəsi bankların fəaliyyəti ilə bağlıdır. Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərmanından söz açan komitə sədri bu sənədin ölkədəki bankların fəaliyyətində ciddi dönüş yaradacağını dedi. Qeyd etdi ki, təklif olunan dəyişikliklərin də əsas məqsədi bankların real sektora dəstəyini və qanunların səmərəliliyini artırmaqdır.

İlk olaraq "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" və "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihələri müzakirə edildi. Bildirildi ki, məcəllələrdə nəzərdə tutulan dəyişikliklər "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli qanununun icrası ilə əlaqədardır.

Sonra "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi barədə" və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihələri müzakirə edildi. Qanun layihələrində təklif olunan dəyişikliklərdə məqsəd Mülki Məcəllə ilə "Banklar haqqında" qanun arasında olan ziddiyyətlərin aradan qaldırılmasıdır.

İclasda "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" daha bir qanun layihəsi müzakirə edildi. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəaların hüquqi əsasının formalaşdırılmasını, həmçinin ipoteka kağızının tərtib olunmasını, ipoteka qoyan tərəfindən imzalanmasını, onun notarial qaydada təsdiqlənməsini və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.



Komitə üzvləri "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini də müzakirə etdilər. Dəyişiklik "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanunun tətbiqi ilə əlaqədardır.

İclasda son olaraq "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsi müzakirə edildi.

Dəyişikliklər lotereyaların, o cümlədən elektron lotereyaların təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin, bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsini, lotereyalar təşkilatçısının təsisçisinə dair tələblərin, lotereyalarda iştirak edən şəxslərin yaş məhdudiyyətinə dair müddəaların qanuna daxil edilməsini, elektron lotereyaların dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsini nəzərdə tutur.

Müzakirələr zamanı deputatlardan İlham Əliyev, Şəmsəddin Hacıyev, Əli Məsimli, Vahid Əhmədov, Rüfət Quliyev, iclasa dəvət olunan Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin üzvü Əfqan Baxışov, İpoteka və Kredit Zəmanət Fondunun İdarə Heyəti sədrinin müavini Rəhman Hümmətov və "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Maqsud Tağıyev qanun layihələri ilə bağlı fikirlərini bildirdilər.

Qanun layihələri ikinci oxunuşda müzakirə olunmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Dövlət dəstəyi səmərəsiz qalmır

*Azərbaycanda müasir aqrar-sənaye komplekslərinin yaradılması sürətlənir*

*Əvvəli 1-ci səh.*



Artıq 45 aqroparkdan 4-də birinci mərhələ üzrə işlər başa çatdırılıb, ilin sonunadək isə 14 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulub.

Həyata keçirilən işlər öz müsbət nəticəsini verir. Belə ki, müasir texnika və texnologiyalardan geniş istifadə edən iri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq daha yüksək olur.

Ölkəmizdə aqrar sektorda istehsal edilən məhsulların çox hissəsi Rusiya bazarlarında satılır. Bu sahədə şimal qonşumuz bizim alternativsiz tərəfdaşımızdır. Sentyabrın 27-də Azərbaycan-Rusiya Regionlararası Forumunda bildirildi ki, ötən il ölkəmizdən Rusiyaya ixrac edilən kənd təsərrüfatı məhsullarının həcmi 12 faiz artıb. Bu, yarım milyard dollarlıq məhsul deməkdir. Cari ildə bu rəqəmin daha yüksək olacağı proqnozlaşdırılır.

Ötən ilin sentyabrında Moskvada keçirilən Beynəlxalq Ərzaq Sərgisində ölkəmizi 30 şirkət təmsil edib. Həmin şirkətlər bu gün də Rusiya bazarında uğurla fəaliyyət göstərir. İki ölkə arasında olan siyasi və iqtisadi münasibətlərin yaxşılaşması sayəsində kənd təsərrüfatı məhsullarımızın Rusiya bazarlarına çıxışı da asanlaşıb. Qarşıdakı illərdə ölkəmizdən şimal qonşumuzun ərazisinə daha çox kənd təsərrüfatı məhsulları ixrac ediləcək. Sözsüz ki, belə hal həm ölkəmizin, həm də fərdi qaydada fermerlərin qazancını artıracaq.

Statistikaya nəzər salaq: Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, yanvar-avqust ayları üzrə istehsal olunmuş kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə dəyəri 4 milyard 774 milyon manat təşkil edib. Bunun 2 milyard 387 milyon manatı heyvandarlıq, 2 milyard 386 milyon manatı bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı 4,2, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,6, bitkiçilik məhsulları üzrə 5,8 faiz artıb.

Sentyabr ayının 1-nə olan statistik məlumata görə, payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 99 faizi və ya 1 milyon 41,1 min hektarı biçilərək sahələrdən 3 milyon 36,3 min ton və ya keçən ilin eyni dövrü ilə müqayisədə 13,5 faiz çox məhsul götürülüb.

Heyvandarlıqda isə ötən ilin müvafiq dövrü ilə müqayisədə diri çəkidə ət istehsalı 3,3 faiz artaraq 322,9 min ton olub. Bu sahədə ən çox artım baramaçılıqda qeydə alınıb. Belə ki, cari ildə 514 ton (keçən il 245 ton) barama istehsal olunmuşdu ki, bu da son 20 ilin ən yüksək göstəricisidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Naxçıvanda yeni hərbi hissə istifadəyə verildi



Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasını gücləndirib, döyüş qabiliyyətini artırıb. Hərbi hissələrdə aparılan quruculuq işləri və yaradılan müasir şərait isə xidmətin nümunəvi təşkilinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 8-də Əlahiddə Ümumqoşun Ordunun yeni hərbi hissəsi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport verib.

Sonra Ali Məclisin Sədri hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, hərbi hissədə ikimərtəbəli texniki nəzarət məntəqəsi və qarovul evi, 160 yerlik 80 texnika saxlancı, texniki qulluq və təmir, yanacaqdoldurma, eləcə də gündəlik texniki xidmət məntəqələri yaradılıb. Burada hərbi texnika və avtomobillərin saxlanması, təlimata uyğun istifadə və istismarı üçün lazımi şərait vardır. Texniki nəzarət məntəqəsində təlimat sinfi, növbətçi, həkim və digər xidməti otaqlar istifadəyə verilib. Qarovul evində də xidmətin təşkili üçün hərtərəfli şərait yaradılıb.

Təyinatına uyğun olaraq zəruri inventar və avadanlıqlarla təchiz edilmiş texniki qulluq və təmir məntəqəsində artilleriya silahlarının, rabitə vasitələrinin, akkumulyator batareyalarının təmiri və doldurulması, o cümlədən texnikaların təmiri emalatxanaları, ehtiyat hissələr anbarı və çay evi istifadəyə verilib.

Ali Məclisin Sədri hərbi hissədə nümunəvi xidmət şəraitinin yaradıldığını bildirib, şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığının daim artırılması, texnikaların saxlanma şəraitinə nəzarət olunması və təhlükəsizlik qaydalarına əməl edilməsi barədə tapşırıqlar verib.

# Bakıda kosmos üzrə beynəlxalq məktəbin təşkili yüksəkixtisaslı kadrların hazırlanmasına töhfə verir

Oktyabrın 8-də Bakıda "Kosmik Hava və Qlobal Naviqasiya Peyk Sistemləri" üzrə beynəlxalq məktəb öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF), Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR), eləcə də BMT-nin Vyanadakı Kosmik Məsələlər üzrə İdarəsinin (UNOOSA) nəzdində Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitəsinin (ICG), Elm üzrə Beynəlxalq Şuranın nəzdində (İCSU) Günəş-Yer Əlaqələrinin Fizikası üzrə Beynəlxalq Elmi Komitənin (SCOSTEP), Beynəlxalq "Kosmik Hava Təşəbbüsü" Proqramı, "Azərkosmos" ASC-nin və Milli Aviasiya Akademiyasının (MİA) birgə təşkilatçılığı ilə keçirilir.

Tədbirdə məktəbin məqsəd və vəzifələrindən, beynəlxalq əməkdaşlığın perspektivlərindən danışan EİF-in icraçı direktoru Elçin Babayev statistik məlumatları da tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, oktyabrın 13-dək davam edəcək məktəbin məqsədi kosmos və əlaqəli elmlər sahəsində yerli və xarici kadr hazırlığı, yeni elmi əlaqələrin qurulması, beynəlxalq əməkdaşlıq, həmçinin Azərbaycanın elmi potensialı və mədəniyyətinin dünyaya tanıdılması işinə töhfə verməkdir.

Tədbirdə AMEA, MAA, "Azərkosmos" ASC, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşları ilə yanaşı, 22 ölkənin nümayəndələri də dinləyici qismində iştirak edirlər.

Azərbaycanın dünyanın kosmik sənaye sahəsində böyük təcrübəyə malik ölkələrlə sıx əməkdaşlıq etdiyini deyən E.Babayev bildirib ki, ölkəmizdə bu cür məktəblərin təşkili yüksəkixtisaslı kadrların hazırlanmasına xüsusi töhfə verir.

AMEA-nın prezidenti akademik Akif Əlizadə kosmik sahədə azərbaycanlı alimlərin dünya elminə verdiyi töhfələrdən danışıb. Vurğulanıb ki, ölkəmizdə kosmik sahənin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. O, beynəlxalq məktəbin gənc alimlərin elmi potensialının güclənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

AMEA rəhbəri vurğulayıb ki, kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması, ilk növbədə, informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. O, 2010-cu ildə yaradılan "Azərkosmos" ASC-nin Qafqaz regionunda fəaliyyət göstərən ilk peyk operatoru olduğunu diqqətə çatdırıb. Son beş ildə ölkəmizə aid "Azerspace-1", "Azərsky" və "Azerspace-2" adlı peyklərin orbitə buraxıldığını bildirən A.Əlizadə deyib: "Bu da müştərilərə peyk rabitəsi əsasında yayım və genişzolaqlı internet xidmətləri, eləcə də yüksək etibarlı peyk əsaslı rabitə platformaları təqdim etməyə imkan verir".

NASA-nın Qoddard Kosmik Uçuş Mərkəzinin aparıcı alimi, Elm üzrə Beynəlxalq Şuranın nəzdində Günəş-Yer Əlaqələrinin Fizikası üzrə Beynəlxalq Elmi Komitənin prezidenti və Beynəlxalq Kosmik Hava Təşəbbüsü Proqramının icraçı direktoru Nat Qopalsvami, ABŞ-ın Merilənd Universitetinin fəxri professoru, akademik Roald Saqdeyev beynəlxalq aləmdə kosmik tədqiqatlar üzrə tanınmış ekspertlərin Bakıya toplanmasının Azərbaycanda bu sahənin tərəqqisi üçün geniş imkanlar açacağına əminliklərini ifadə ediblər.

Sonra Nat Qopalsvami "Günəş mənbələri və kosmik hava", Roald Saqdeyev "Hava anlayışını təmin etməyə dair plazma fizikasının alətlər və üsulları" və BMT-nin Kosmik Məkan Məsələləri üzrə İdarəsinin nümayəndəsi Şərafət Qədimova "Birləşmiş millətlərin Kosmik hava şəraitinin müasir cəmiyyətə təsiri" mövzusunda təqdimatlarla çıxış ediblər.

Beynəlxalq məktəbin işində NASA, Boston Kolleci, Boulder Atmosfer Tədqiqatları Milli Mərkəzi, Amerika Katolik Universiteti, Massaçusets Texnologiya İnstitutunun Haystak Rəsədxanası, Avstriya, İtaliya, Fransa, Xorvatiya, Rusiya, İngiltərə, Avropa Komissiyası, həmçinin Azərbaycanın akademik və təhsil qurumlarından olan tanınmış alim və mütəxəssislərin plenar və öyrədici məruzələrlə çıxışları nəzərdə tutulub.

Tədbir çərçivəsində "Azərkosmos" ASC, ŞAR və MAA-da elmi-təcrübə sessiyaları keçiriləcək.

# Mark ŞNAYER: "Dünya ictimaiyyəti Azərbaycanın multikulturalizmlə bağlı nailiyyətlərini yüksək dəyərləndirir"

Oktyabrın 8-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer ilə görüşüb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Allahşükür Paşazadə ölkəmizdəki tolerant mühitdən söhbət açıb. Şeyxülislam qeyd edib ki, Azərbaycanda əsrlərdən bəri multikultural dəyərlər son dərəcə önəmli yer tutur. Burada müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələri heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşayırlar.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirdiyini, Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib. O, QMİ sədri ilə Bakıda və ABŞ-da keçirdikləri görüşləri, habelə Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi "Multikulturalizm", "İslam həmrəyliyi" illəri çərçivəsində keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırlayıb. Azərbaycanda müxtəlif xalqların və etnik qrupların, o cümlədən yəhudi icması nümayəndələrinin dinc yanaşı və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığını qeyd edən qonaq onların Azərbaycanın ictimai həyatında fəal iştirak etdiyini xüsusi vurğulayıb.

Fondun prezidenti bildirib ki, multikulturalizm siyasəti vasitəsilə etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətləri dünya ictimaiyyəti yüksək dəyərləndirir. Azərbaycanın qlobal ideyalarının dünyaya yayılmasına hər zaman dəstək olacağını bildirən M.Şnayer rəhbərlik etdiyi ABŞ Etnik Anlaşma Fondunun bu işə öz töhfəsini əsirgəməyəcəyini qeyd edib.

Şeyxülislam diqqətə çatdırıb ki, bu gün bir çox dövlətlər Azərbaycanın bu sahədəki uğurlu təcrübəsini öyrənir. Mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilmiş bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin və multikulturalizm təcrübəsinin təbliği baxımından son dərəcə mühümdür. Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoq məkanı kimi dünyada tanıdılması istiqamətində tədbirlərin davamlı olmasının zəruriliyindən danışan QMİ sədri qarşıdakı Berlin konfransı haqqında qonağı məlumatlandırıb.

# Səməd SEYİDOV: "Ölkələrə qarşı ikili standartlar davam edir"

Bu gün biz AŞ PA-da ölkələr, onların vəziyyəti haqqında danışırıq. Ancaq təəssüflər olsun ki, ölkələrə münasibətdə ikili standartlar yenə də davam edir. Türkiyə Avropanın sabitliyinə töhfələr verib. Buna nümunə kimi Avropadakı miqrant böhranı zamanı Türkiyənin köməyini göstərə bilərik.

Bu fikirləri AŞ PA-nın payız sessiyasında Türkiyədəki seçkilərlə bağlı debatlarda Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

Səməd Seyidov bildirib ki, Türkiyə ölkə daxilində terrorizmə qarşı mübarizə aparır, stabilliyin qorunub saxlanması istiqamətində çalışır, ancaq buna baxmayaraq, yenə də xırda detallara görə tənqid olunur. Türkiyədə seçkilər çətin şəraitdə, azad və açıq şəkildə təşkil olunub. Seçicilərin 86 faizi seçkilərdə iştirak edib. Halbuki Avropada bu, mümkün deyil. Türkiyə xalqının seçkilərdə bu iştirakı onun iradəsini, ölkəni Avropa ilə bərabər görmək istəyini əks etdirir. Bu ölkə bizim bölüşdüyümüz dəyərləri bölüşür.

"Bu gün Türkiyə AŞ PA-da yeni, müxtəlif partiyaları təmsil edən nümayəndə heyəti ilə təmsil olunur. Əminəm ki, bu nümayəndə heyəti Türkiyə xalqının istəklərini ifadə edəcək. Uğurlarını görmək istəmədiyimiz, ancaq xırda detallarına vardığımız Türkiyə çətin şəraitə baxmayaraq, qalib çıxdı. Sizi yiyələndiyimiz dəyərlərə qayıtmağa çağırıram", - deyə Azərbaycan nümayəndə heyətinin rəhbəri qeyd edib.

**AZƏRTAC**

# "Evimizə qəhrəman kimi qayıdacağıq"



Əvvəli 1-ci səh.

Qalan şəxsi heyət isə döyüş tapşırığını yerinə yetirir. Onlar düşmənin dərinlikdəki gündəlik fəaliyyətini izləyir və hər hansısa bir dəyişiklik olan kimi rəhbərliyə dərhal məruzə edirlər. Günün ikinci yarısında isə fiziki hazırlıqla məşğul olurlar.

Artilleriya batareyasının gənc əsgərlərini isə zabit Nicat Qurbanov təlimatlandırır. Batareyanın digər əsgərləri atəş mövqeyində döyüş növbətçiliyindədirlər.

## Aprel qəhrəmanları ilə birlikdə xidmət etmək qürurvericidir

Sərbəst vaxt elan edilir və bundan yararlanaraq gənc əsgərlərlə söhbətləşmək fürsətini qaçırmırıq.

Gənc əsgər Pirxan Cəfərovu daha çox maraqlandıran hərbi hissənin keçdiyi döyüş yoludur: "Bu hərbi hissə barədə çox şey bilirəm. Lələtəpəni məhz burada xidmət edən igidlər azad ediblər. Qəhrəmancasına savaşıb şəhid olanları bu gün hər kəs ehtiramla anır. İstəyirəm ki, adaptasiya prosesindən sonra xidmətimi həmin ərazidə davam etdirim. Bu, mənim üçün böyük şərəf olar".

Hərbi sirləri həvəslə öyrənən əsgər Tunar Məmmədov çox qürurludur. Bunun səbəbini isə belə izah edir: "Aprel zəfərində qəhrəmancasına döyüşən hərbçilər bu gün bizlərə təlimlər keçirlər, dərs verirlər. Onlar canlı əfsanədirlər. Digər tərəfdən, Ali Baş Komandanın oğlunun da bizim kimi hərbi forma geyinərək xidmətə başlaması məni və digər əsgər yoldaşlarımı çox qürurlandırır. Bu onu göstərir ki, Azərbaycan Prezidenti öz oğlunu bizlərdən seçmir, ayırmır. Prezident öz oğlunu xarici ölkələrdə oxumağa da göndərib ali təhsilini davam etdirə bilərdi. Amma hər kəsə örnək olan bir addım ataraq nümunə göstərdi. İndi Heydər Əliyev də bizim kimi vətən qarşısında borcunu sədaqətlə yerinə yetirir".

Əsgər Elnar Babayev hərbi hissəyə çox asanlıqla adaptasiya olunduğunu deyir. Çünki komandirləri onlara hər cür dəstək göstərirlər. Gənc əsgər ordudan qələbə müjdəsi ilə tərxis olunmağı arzulayır: "Biz artıq özümüzü mübariz əsgər kimi hiss edirik. Axı, qalib ordunun əsgərləriyik və hər an döyüşə hazırıq. Zabitlərimizin bizlərə hərb elminin sirlərini öyrətmələri ilə bərabər, mənəvi dəstəklərini də qeyd etmək istəyirəm. Biz daim orduya bağlı olan zabitlərimizdən ilhamlanırıq. Fürsətdən istifadə edib öz yaxınlarıma, ailəmə, dostlarıma salamlar göndərirəm. Narahat olmasınlar, bir əsgər kimi dövlətimizin daimi qayğısını hiss edirik. Qidalanmağımız, geyimimiz yüksək səviyyədədir".



## Əsgər yeməyi - bol-bol çeşid, yüksək keyfiyyət

Nahar vaxtına az qaldığı üçün yeməkxanadakı hazırlıq prosesini izləmək məqsədi ilə əsgərlərlə söhbətimizi yekunlaşdırırıq.

Günortanın qida rasionu vitrindədir - Bir nəfər üçün nəzərdə tutulan çörək, noxud şorbası, üzərində ət qulyaşı ilə qarabaşaq və ya makaron, çoban salatı və alma şirəsi.

Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Bütün avadanlıqla təchiz edilmiş yeməkxanada mətbəx, təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılmasına və bişirilən yeməklərin çeşidinin artırılmasına xüsusi diqqət yetirilir. Milli yeməklərin hazırlanmasına üstünlük verilir.

Burada 3 növbəli sistemlə (hərəsində 12 nəfər olmaqla) 36 mülki işçi çalışır. Onların əksəriyyəti qadındır. İki hərbçi aşpaz isə növbəli sistemlə mülki işçilərlə birlikdə işləyirlər.



Şəxsi heyət üçün hazırlanan gündəlik yeməyin çeşidi isə çox zəngindir. Səhər qida rasionunda hər gün kərə yağı, pendir, meyvə cemi, yumurta, şirin çay mütləqdir. Bundan başqa, müxtəlif günlərdə səhərlər düyü, vermişel sıyığı, çəkilmiş mal əti ilə qarabaşaq verilir.

Nahar rasionu da çoxçeşidlidir. Həftənin müxtəlif günlərində çeşidi dəyişməklə sulu yeməklərdən mərci, lobya, noxud, qorox şorbası, borş, küftə hazırlanır. Bununla yanaşı, qovrulmuş ətlə makaron, qarabaşaq, düyü, vermişel bişirilir.

Şam yeməyində isə balıq konservi, kartof püresi, bulğur və düyü sıyığı olur. Həmçinin hərbçilər mövsümi tərəvəz salatları və şirələrlə təmin edilirlər.

## "Yeməklərimiz evdə yediklərimizdən fərqlənmir"

Bişirilən yeməklərin dadına gəldikdə isə bunu gənc əsgərlərin xörəkləri necə iştahla yediklərindən də hiss etmək mümkün idi. Sanki evlərində bişirilən yeməkləri yeyirdilər.

Birlikdə süfrə arxasına əyləşdiyimiz gənc əsgərlərdən Məhəmməd Zeynallı, Tərlan Əsgərov və Aslan Aslanlının etiraflarından da bəlli olur ki, həqiqətən, burada bol çeşidli yeməklər çox dadlı bişirilir. Hərbi xidmətə başladıqları gündən yeməklə bağlı problem yaşamayıblar. İndi onların bir məqsədləri var - tezliklə hərbi hissəyə tam uyğunlaşıb komandirlərin əmrləri əsasında döyüş tapşırıqlarını yerinə yetirmək.

Əlbəttə ki, ön xətdəki hərbi hissədə yaradılmış bu şərait şəxsi heyətin yüksək mənəvi-psixoloji ovqatda köklənməsinə, döyüş və mübarizə əzminə də müsbət təsir göstərir. Nümunəvi hərbi xidmətin əsas göstəricilərindən biri də əsgər və zabitlərin vəzifə borclarına layiqincə yanaşmalarıdır. Məhz bu baxımdan hərbi hissədə münasibətlər sırf hərbi qanunvericilik, daxili nizamnamə üzərində qurulur.

## Hərbi hissənin tankçıları - Aprel qəhrəmanları

Nahar başa çatır, bir-birini əvvəllər tanıyan və sonradan münasibətləri qurulan hərbçilər kiçik fasilədən yararlanaraq yeməkxananın qarşısında görüşüb söhbətləşirlər. Diqqətimizi çəkən 3 hərbçiyə yaxınlaşırıq və məlum olur ki, bu gizirlər- Səxavət Alpaşayev, Hacıağa Qədirov və Elvin Orucov tank komandirləridirlər. Ordumuzun Aprel zəfərində onların da böyük payı var.

Ermənistan silahlı bölmələrinin qəfil hücumunun qarşısının alınması zamanı tank komandirləri Lələtəpə istiqamətində gedən döyüşə qatılıblar. Atdıqları dəqiq atəşlərlə qarşı tərəfin bir neçə zirehli texnikasını sıradan çıxarıblar. Heç bir itki verməyərək döyüşdən sağ-salamat çıxıblar. Göstərdikləri şücaətə görə, hərbi hissə komandanlığı tərəfindən fəxri fərmanlarla təltif olunublar.

Aprel zəfərinin qəhrəmanları ilə söhbətləşmək həqiqətən həm çox maraqlı, həm də qürurvericidir. Çünki onların həyat yolu, Vətən sevgisi hər kəsə nümunədir. Onlarla söhbət zamanı bizdə əminlik yaranır ki, bu gün Azərbaycan hərbçiləri vətənpərvər, yüksək mənəvi-psixoloji hazırlığı olan, yetərincə dünyagörüşünə malik hərbi qulluqçulardır.





## Ön cəbhənin əsgəri həm də fiziki cəhətdən güclü olmalıdır

İstirahət vaxtı başa çatır və artıq idman saatıdır. Şəxsi heyətin fiziki sağlamlığının təmini məqsədilə yaradılmış idman şəhərciyində lazımi idman qurğuları quraşdırılıb. Ümumiyyətlə, düşmənlə təmas xətti özünəməxsus qaydaları, ciddi nizam-intizamı ilə seçilir. Burada xidmət keçən əsgər və zabitlərin mənəvi-psixoloji cəhətdən möhkəm, fiziki cəhətdən güclü olması vacib şərtlərdəndir. Elə bu səbəbdən də fiziki hazırlığa xüsusi önəm verilir.

Gənc əsgərlər zabitlərin göstərişləri ilə müxtəlif hərəkətləri yerinə yetirirlər. Kimisi qaçır, kimisi turnikdə çəkinir, kimisi paralel qollarda məşq edir. Bütün bunlar hərbçilərin daha sağlam, gümrah olmalarına xidmət edir.

Elə bu xoş ovqat, xoş təəssüratla hərbi hissəni tərk edirik və bir daha əmin oluruq ki, Vətən etibarlı əllərdədir.

## Güvənc yeri, qürur, ləyaqət rəmzi

Ordu hər bir millətin güvənc yeri, qürur, ləyaqət rəmzi, şərəfi, özünütəsdiq imkanıdır. Güclü ordu fiziki, psixoloji cəhətdən hərbçi adını daşımağa hazır olan vətəndaşlardan və onların hərbi vasitələrlə tam təchiz edilməsilə formalaşır. Bu gün Azərbaycan Silahlı Qüvvələri dövlətin qüdrətinin nümunəsidir, xalqın iftixar yeridir.

Ali Baş Komandan İlham Əliyevin və Müdafiə Nazirliyinin rəhbərliyinin əsgər və zabitlərlə mütəmadi olaraq görüşməsi, onların qayğısı ilə maraqlanması hərbçilərimizdə döyüş, vətənpərvərlik ruhunu daha da artırır. Hər bir əsgərinin qayğısına qalan, onun döyüş ruhunu yüksəldən, maddi-texniki bazasını gündən-günə yaxşılaşdıran dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edib. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bu il Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi və Bakının işğaldan azad edilməsinin 100 illik yubileyi münasibəti ilə keçirilən hərbi paradlar da silahlı qüvvələrimizin qüdrətini dünyaya nümayiş etdirdi.

Ali Baş Komandan İlham Əliyev iyunun 26-da keçirilən hərbi paradda Ermənistan rəhbərliyinə bir daha xəbərdarlıq etdi: "Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər".

İlham Əliyev bəyan etdi ki, gün gələcək işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək: "Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Ali Baş Komandan haqlı olaraq məhz bu müzəffər ordusuna güvənir. Çünki Azərbaycan əsgərinin mənəvi-psixoloji durumu, hərbi və maddi-texniki təchizatı, döyüş hazırlığı onu sübut edir ki, tezliklə Xankəndidə, Şuşada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanında keçiriləcək zəfər yürüşündə qürurla dalğalanacaq.









***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

(Əvvəli 6 oktyabr nömrəsində)




# Goranboyda tarlalar üzə gülür

Keçən il su çatışmazlığı və havaların əlverişsiz keçməsi Goranboy pambıqçılarını məyus etdi. Götürdükləri öhdəliyi yerinə yetirə bilmədilər. Bütün qüvvələr səfərbərliyə alınsa da, 10 min tona qarşı cəmi 7 min ton pambıq istehsal edildi. Bu göstərici tarixən pambıqçılıqda böyük təcrübə qazanmış rayon sakinlərini narahat etməyə başladı. Mövsümün sonunda rayon icra hakimiyyətində keçirilən müşavirədə buraxılan nöqsanlar ciddi təhlil edildi, pambıqçılıqla məşğul olan şirkətlər qarşısında vəzifələr müəyyənləşdirildi.







Torpağın səpinə hazırlığından başlamış səpin prosesinə qədər bütün işlər nəzarətə götürüldü. Xüsusilə rayonda mövcud olan su probleminin həlli istiqamətində işlər görüldü. Həyata keçirilən işlər öz bəhrəsini verdi. İndi pambıqçıların üzü gülür.

Goranboy tarixən pambıqçılıq rayonudur. 1970-ci illərdə respublikamızda pambıqçılıqda qazanılan uğurlarda onun da payı olub. Burada onlarca əmək qəhrəmanı yetişib. Onların adlarına şeirlər yazılıb, mahnılar bəstələnib. Sovetlər birliyi dağıldıqdan sonra pambıqçılıq bu rayonda da tənəzzülə uğrayıb. İnsanların əli işdən soyuyub. Nəticədə əsas qazanc yeri olan pambıqçılıq tədricən sıradan çıxıb və yerində müxtəlif bostan bitkiləri əkilib. Bu da əhaliyə elə bir qazanc gətirməyib. Ölkə rəhbəri İlham Əliyevin göstərişi ilə bu gəlirli sahə yenidən inkişaf etdirilməyə başlanıb. Fermerlərə dövlət hesabına müxtəlif güzəştlər edilib. Pambığın müasir texnologiyalarla becərilməsi və əl əməyinin yüngülləşdirilməsi üçün fermerlər texnikalarla təmin edilib. Pambığın hər tonu üçün onlara subsidiyalar verilib. Bu yaxınlarda Prezident İlham Əliyevin sərəncamı ilə təhvil verilən hər ton pambıq üçün fermerlərə 50 manat subsidiya verilməsi pambıqçıları daha da həvəsləndirib.

Pambıqçılığın inkişafına göstərilən belə qayğı Goranboy sakinlərində də ruh yüksəkliyi yaratmışdır. Məhz bunun nəticəsidir ki, indi rayonda elə bir kənd yoxdur ki, orada pambıq əkilməsin. "Azərpambıq" MMC-nin göz işlədikcə uzanan pambıq sahələrində də bol məhsul var. Cəmiyyətin direktoru Səyavuş Qurbanov dedi ki, bu torpaqlar hələ bu qədər məhsul yetişdirməyib. 32 kənddə 1700 hektar sahədə pambıq yetişdirmişik. 221 fermerlə müqavilə bağlanılıb. Yığım pis getmir. Hələlik hər hektardan 20-25 sentner məhsul götürülür. Bu rəqəm yaxın günlərdə artacaq.

Oktyabrın 3-nə olan məlumata görə, "Azərpambıq" MMC-nin tarlalarından 2000 tonadək pambıq yığılıb ki, bu da keçən ilin müvafiq dövründən 988 ton çoxdur. Ümumiyyətlə, "Azərpambıq" MMC-nin müqavilə bağladığı kəndlərin hamısında bol məhsul yetişdirilib. Məsələn, Qaradağlılar kəndinin sakini Sərvaz Hüseynov 60 hektar sahədə pambıq əkib. Hər hektardan orta hesabla 25 sentner məhsul götürür. Qızılhacılı kəndinin sakini Həsən Süleymanov da builki məhsulundan çox razıdır.

"CTS Aqro" MMC-də tarlalardan bol məhsul gözlənilir. 1700 hektar sahədə məhsul yetişdirən cəmiyyət 220 nəfər torpaq sahibi ilə müqavilə bağlayıb. Fermerlərə hər cür qayğı göstərən cəmiyyət yığımın mütəşəkkil və itkisiz başa çatdırılması üçün köməyini əsirgəmir. Pambıq qəbulu məntəqəsində də işlər yaxşı gedir. Məntəqədə qəbul edilən pambıq qurudularaq tayalara vurulur.

"CTS Aqro" MMC ilə müqavilə bağlamış fermerlər də onlara göstərilən qayğıdan razıdırlar. Cəmiyyət əkindən tutmuş yığıma kimi fermerlərə lazımi kömək göstərir. Məhz bunun nəticəsidir ki, Veyisli kənd sakini Zahid İsmayılov, keçənilkindən fərqli olaraq, bu il daha çox pambıq əkib. 12 hektarda bol məhsul yetişdirən torpaq sahibi hər hektardan 34 sentner pambıq götürür. Artıq burada da birinci yığım başa çatıb. Xanqərvənd kəndinin sakini Cavid Əkbərovun sahələrində də bol pambıq yetişdirilib. İndiyədək 3 hektar sahədən 22 ton 480 kiloqram məhsul toplayıb. Onun həmkəndlisi Elman Rüstəmov 22 hektar sahədə yetişdirdiyi məhsulun hamısını maşınla yığıb. İndiyədək 65,3 ton pambıq təhvil verib.

"MKT İK" MMC də bu il pambıq əkininə ciddi yanaşıb. Torpaq vaxtında şumlanıb, səpin vaxtında aparılıb, pambıq kollarının suvarılmasına diqqətlə yanaşılıb. İndi hər gün qəbul məntəqəsinə onlarca lafet pambıq gətirilir. Məntəqənin direktoru Vaqif Məmmədov deyir ki, bu il ötən illə müqayisədə məhsul ikiqat çox olacaq. Bu il yığımda maşınlara daha çox üstünlük verilib. Məhz bunun nəticəsidir ki, yığım sürətlə gedir. Məsələn, Qırıxlı kəndinin sakini Tofiq Məmmədov 6 hektar sahədən 20,4 ton məhsul toplayıb. Bu da hər hektardan orta hesabla 34 sentner pambıq deməkdir. Xanqərvənd kəndindən Yaşar Məmmədov 7,5 hektar sahənin hər hektarından bundan da çox - 40 sentner məhsul yığıb.

Cəmiyyətin müqavilə bağladığı Qızılhacılı kəndinin sakini Bayram Səlimov da bu il bol məhsul yetişdirib. O, 5 hektar sahədən indiyədək 18 ton 500 kiloqram pambıq yığıb. Bu da hər hektardan 38 sentner məhsul deməkdir.

Bir sözlə, Goranboy pambıqçıları bu il tarlalarda bol məhsul yetişdirmişlər. Rayon icra hakimiyyətində də dedilər ki, yığımın mütəşəkkil getməsi üçün qərargah yaradılıb, qaynar telefon xətti fəaliyyət göstərir. Yığım zamanı baş verən hər hansı problem aradan qaldırılır. Bundan başqa, pambıq tarlalarının ərazisində təcili yardım briqadaları təhkim olunmuşdur. Rayon icra hakimiyyətinin rəhbərləri də tez-tez pambıq sahələrində olurlar. Elə həmin gün rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyevlə rayon mərkəzindəki pambıq sahələrində rastlaşdıq. Dedi ki, bu il rayonda pambıq boldur. Əminik ki, öhdəliyimizə əməl edəcəyik.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

Payız artıq hiss edilir. Havaların nisbətən soyuduğu, günlərin qısaldığı bu fəsildə pambıqçı daha qayğılı olur. Çalışır ki, aylardan bəri zəhmət çəkib yetişdirdiyi pambığı tez və itkisiz yığıb, müqavilə bağladığı şirkətə təhvil versin. Bunun üçün o, hər gün tarlalara daha çox işçi qüvvəsi, texnika çıxarmağa səy göstərir.



# Biləsuvarda pambıq yığımı mütəşəkkil keçir





Biləsuvarda da bu gün pambıq sahələri əsl hünər meydanına çevrilmişdir. Hər yanda əmək coşqusu var. Qeyd edək ki, biləsuvarlı əkinçilər pambıqçılıqda yaxşı ənənələrə malikdirlər. Onlar strateji əhəmiyyət kəsb edən bu bitkiyə böyük diqqət və qayğı ilə yanaşırlar. Bu da onun digər əkin növləri üçün yaxşı sələf olması ilə bağlıdır. Növbəli əkin sistemini tətbiq etmədən yüksək məhsul əldə etmək mümkün deyil. Buna görə də ölkədə pambıqçılığın inkişafı ilə əlaqədar görülən işlər rayon pambıqçılarının ürəyincədir. Pambığın satınalma qiymətinin artırılması, habelə subsidiyanın verilməsi fermerlərin bu sahəyə marağını daha da artırmışdır.

Xatırladaq ki, keçən il rayonda 11 min 351,8 hektar sahədən 24 min 762,4 ton məhsul yığılmışdır ki, bu da hər hektardan 26,8 sentner məhsuldarlıq deməkdir. Bu, ölkədə ən yaxşı göstəricilərdən biridir. Daha yüksək nəticələr əldə etdiklərinə görə rayon pambıqçılarından Fazil Musayev 1-ci dərəcəli "Əmək" ordeni, Lətif Cəfərov "Tərəqqi" medalı ilə təltif edilmişlər.

Cari ildə Biləsuvarda 12 min hektarda pambıq əkilmişdir. Torpaq mülkiyyətçiləri, fermerlər burada pambıq istehsalı və tədarükü ilə məşğul olan üç şirkətlə - "MKT- Biləsuvar" ASC, "Azərpambıq" və "Kənd Təsərrüfatı" MMC ilə müqavilə bağlamışlar. Hər üç müəssisə məhsulun əkilməsi, becərilməsi zamanı sahibkarlara lazımi kömək göstərmiş, onları toxum, gübrə, habelə texnikalarla təchiz etmişdir. Yığım dövründə bu əməkdaşlıq daha operativ şəkil almış və nümunəvi təşkil olunmuşdur.

"MKT-Biləsuvar" ASC-nin mühəndisi Zakir İmanovla tarlalara baş çəkirik. Biləsuvar-Bəhrəmtəpə yolu ilə təxminən 20-25 kilometr getdikdən sonra o qədər də uzaqda olmayan sol tərəfdəki sahələrdə kombaynlar görünür. Yol yoldaşım buraların Çaylı kəndi ərazisi olduğunu söyləyir.

O, idarə etdiyi "Niva"nı magistral yoldan aşağı salıb, torpaq yolla kombaynların yanına sürür. Oraya çatıb maşını saxlayır. İki qoşa lafet dayanaraq pambıqyığan maşının bunkerinin dolmasını gözləyirdi. İlk olaraq qarayanız, ortaboylu, 50-55 yaş arasında olan adamla tanış oluruq. "MKT-Biləsuvar" ASC-nin sahə aqronomu Eyvaz Şirinov da yanındakıları bizə təqdim edir. Görüşüb işlərinin gedişi ilə maraqlanırıq. Məlum olur ki, pambıqyığan maşın işləyən sahə Çaylı kəndindən olan torpaq mülkiyyətçisi Habil Rəcəbovundur. Sahə aqronomu onun bir az bundan əvvəl evlərinə - işçilər üçün nahar gətirməyə getdiyini deyir. Tarlaya nəzər salırıq. Hər tərəf ağappaqdır. Sahə aqronomu E.Şirinov hər hektardan bir yığım zamanı 35 sentner məhsul götürdüyünü bildirir. Sonra hər kolun üstündə qozaların qaldığını göstərib: "Yəqin, ikinci yığımda da xeyli məhsul olacaq", - deyir.

"Conder" markalı pambıqyığan maşın lafetlərin yanına çatıb dayanır. Nəqliyyat traktorçuları lafetləri bunkerin altına verirlər. Sürücü-mexanizator İsa Həmidov bunkeri yavaş sürətlə qaldırır. Pambıq axıb lafetə tökülür. Dilavər Aslanov və Bəhrəm Rəcəbov lafetə tökülən pambığın üstünü yelkənlə bağlayırlar. Dolmuş lafetlər zavoda yola salınır. Sürücü-mexanizator İ.Həmidovdan "Conder"in necə işlədiyini soruşuruq. "Əla yığır, özünüz görürsünüz, açılan pambığın hamısını tərtəmiz götürür, kolun üstündə bir qram da qoymur qalsın", - deyir.

Öyrənirik ki, ümumilikdə "MKT-Biləsuvar" ASC-nin 14 belə kombaynı var və onlar indi müxtəlif sahələrdə işləyir. Yığılan məhsulun daşınması üçün 94 lafetdən istifadə edilir.

Oradan bir az uzaqda əl ilə pambığı yığılan Seyran Abdullayevin sahəsinə gedirik. Burada öyrənirik ki, pambıqçı qızlardan Aybəniz Kərimova, Şəhla Nuriyeva, Xəzangül və Məleykə Məmmədova bacıları, Gülnisə Fətullayeva hər gün adama 80-90 kiloqram pambıq toplayırlar. Onlar söhbət etsələr də, əlləri bir an belə dayanmırdı.

Biləsuvarda pambıq yığımı gündəngünə geniş vüsət alır. Defalyasiya olunmuş sahələrdə də kütləvi yığıma başlanmışdır. Hər gün tədarük təşkilatlarına orta hesabla 450-500 ton məhsul göndərilir.

Pambıq dolu lafetlər bir-birinin ardınca müəssisəyə gəlir. Burada isə məhsuldan nümunələr götürülür, nəmliyi, zibilliliyi laboratoriyada dəqiq yoxlanılır, sonra zavodun həyətinə buraxılır. Xam pambığın eribarlı şəkildə qorunması, saxlanması üçün bütün tədbirlər görülmüşdür. Tayaların yerləri, tayavuran, pambıqdaşıyıcı, təmizləyici, kipləyici və digər avadanlıqlar vaxtında təmir edilib saz hala gətirilmişdir. İndi müəssisədə mahlıc emal edilir. Mövsümlə əlaqədar əlavə 150 nəfər işə qəbul olunub.

Biləsuvarlılar kənd təsərrüfatının mühüm sahəsi olan pambıqçılığın durmadan inkişafı üçün əllərindən gələni əsirgəmirlər. Mütəxəssislər keçən illə müqayisədə su probleminin yaşanmadığını, nəticədə hər bir sahədə, hər bir kolun üzərində kifayət qədər qoza yetişdiyini söyləyirlər. Bu da, öz növbəsində, bol məhsul deməkdir. Məhsul bolluğu isə xoş güzərandan, yaxşı əhvali-ruhiyyədən xəbər verir.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Fındığın bazarı olsa da...

## *Bugünkü qiymətlər nə istehsalçıları qane edir, nə də emal müəssisələrini*

Artıq ölkə ərazisində fındıq yığımı yekunlaşma mərhələsindədir. Ümumilikdə istehsalçılar builki məhsuldan razıdırlar - həm kəmiyyət, həm də keyfiyyətinə görə. Bol və keyfiyyətli məhsul isə, sözsüz ki, emal müəssisələrinin də işinə yarayır. Bu halda onlar ixracyönümlü məhsul olan fındığı xarici tərəfdaşlarının qarşısına üzüağ çıxarır, qiymət məsələsində sözlərini arxayın deyə bilirlər.





Qərzəkli meyvələrin bol olduğu Qax rayonunda 9552 hektar fındıq bağı var. Onun 6228 hektarı bar verən, 600 hektarı cavan, 2724 hektarı isə təzə salınan bağlardır. Bu il üçün gözlənilən məhsul təqribən 5300 tondur.

Qaxdakı fındıq emalı müəssisələrindən birində olduq. "Ata-baba fabrik" MMC-nin icraçı direktoru Azər Əliyev dedi ki, bu il ümumilikdə məhsulla bağlı şikayətlənməyin yeri yoxdur. "Sentyabrdan məhsulun qəbuluna başlanıb. Müəssisənin gün ərzində 25-30 ton məhsul qəbul etmək imkanı var. Builki fındıq keyfiyyətinə görə də yaxşıdır" deyən A.Əliyev bildirdi ki, əsas tədarükçüləri rayonun Marsan, Turaclı, Küdüllü və Tasmalı kəndlərinin sakinləridir: "Müəssisədə işin həcmindən asılı olaraq işçilərin sayı dəyişir. Mövsümün qızğın dövründə burada 35-55 nəfər qadın, 10-15 nəfər kişi işləyir".

Öyrəndik ki, fındıq qəbulu təxminən mart ayına kimi davam edir. Bunun da səbəbləri var. Bəzi fermerlər qiymət artımını gözləyərək fındığı gec təhvil verir və ya satışa az həcmdə çıxarırlar.

Müəssisənin satış bazarı əsasən Rusiya, İtaliya, Hollandiya və Almaniyadır. Hazırda Çexiya, İsveçrə və Çin Xalq Respublikasının əlaqədar qurumları ilə danışıqlar gedir ki, bu da beynəlxalq əhəmiyyətli qida sənayesi sərgilərində iştirakın nəticəsidir. Müəssisənin təmsilçiləri AzPROMO-nun "Made in Azerbaijan" brendi altındakı bütün sərgilərdə iştirak edirlər. Onlar cari ildə Fransa, Rusiya, Almaniya, ÇXR-də, Birləşmiş Ərəb Əmirliklərində olublar.

Narahatlıq doğuran məqamlara gəldikdə, bu, fındığın alış və satış qiymətinin keçən illə müqayisədə aşağı olmasıdır. Bunun başlıca səbəbi dünya bazarının bir nömrəli fındıq istehsalçısı olan Türkiyə istehsalçılarının qiyməti diktə etmək imkanına malik olmalarıdır. Bu gün 1 kiloqram fındığın alış qiyməti 2,50-3 manat aralığında dəyişir. Beynəlxalq bazarlardakı tərəfdaşlardan fındıq emalçılarına 1 kiloqram fındıq üçün gələn təklif isə, daşınma da daxil olmaqla, 5 ABŞ dolları təşkil edir. Bu da keçənilki və bu ilin əvvəlinə olan qiymətlə müqayisədə azdır. Qiymətlərin aşağı olması isə nə istehsalçılara, nə də emalçılara sərf edir.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# 400-dən çox abonent təbii qazla təmin olunacaq

AZƏRTAC xəbər verir ki, Xaçmazın Hacıəlibəy kəndinin qazlaşdırılması üçün birpilləli sistem əsasında 8 min metr müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, həmçinin məhəllədaxili qaz xətləri çəkilib.

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən həyata keçirilən tikinti işləri qısa müddətdə yekunlaşacaq və abonentlərə "mavi yanacağ"ın verilməsinə başlanacaq.

Xaçmaz Regional Qaz İstismarı İdarəsinin baş mühəndisi Əlibaba Əliyev bildirib ki, kənddə hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılacaq. Bununla yanaşı, abonentlər qazla davranış və təhlükəsizlik qaydaları ilə bağlı maarifləndirilirlər.

Xaçmaz rayonunda 151 yaşayış məntəqəsindən 111-nin qazlaşdırılması yekunlaşıb.

# 1055,2 hektar sahədə təkrar əkin aparılıb

Cəbhə bölgəsində yerləşən Ağdam rayonunun iqtisadiyyatında aparıcı yer tutan kənd təsərrüfatında məhsul yığımı, həmçinin payızlıq əkinlər üçün şum və səpin işləri davam edir.

Rayon statistika idarəsindən AZƏRTAC-a bildiriblər ki, torpaq mülkiyyətçiləri bugünədək 52 min 160 ton taxıl, 275 ton dən üçün qarğıdalı, 6,8 ton günəbaxan dəni, 80 min 728 ton tərəvəz, 2570 ton bostan məhsulları, 5923 ton kartof, 15 min 118 ton şəkər çuğunduru, 1060 ton meyvə, 79,5 ton üzüm, 1068,7 ton pambıq istehsal ediblər.

Torpaqdan səmərəli istifadə edən fermerlər 13 min 244 hektar sahədə şum qaldıraraq 1474 hektar sahədə yaşıl yem üçün xəsil, 1055,2 hektarda təkrar əkin aparıblar.

# Heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb

2018-ci ilin ötən 9 ayı Balakən rayonunun heyvandarları üçün uğurlu olub. Həmin dövrdə rayonda bütün növ heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb. Ən çox artım ət istehsalında olub. Belə ki, 9 ayda rayonda diri çəkidə ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 289,8 ton və ya 8,1 faiz artaraq 3 min 861,6 ton olub.

Bu barədə AZƏRTAC-a Balakən Rayon Statistika İdarəsindən məlumat verilib. Qurumdan bildiriblər ki, 9 ayda rayonun təsərrüfatlarında 15 min 729 ton süd istehsal olunub ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 199 ton çoxdur. Heyvandarlıq məhsulları istehsalının artmasında cins maldarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər xüsusi rol oynayıb.

Rayonda 7 milyon 46 min ədəd yumurta, 76,8 ton yun istehsal olunub.

Ölkəmizdə qeyri-neft sektorunun dinamik inkişafı, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər artıq öz bəhrəsini verir. Xüsusilə kənd təsərrüfatında həyata keçirilən islahatlar, aqrar sahədə çalışanlara göstərilən dövlət dəstəyi qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində müsbət irəliləyişlərə səbəb olmuş, eyni zamanda ixrac potensialına da müsbət təsir göstərmişdir. Artıq bir neçə ildir ki, respublikamızın ixrac məhsulları sırasına tütün də əlavə edilmişdir.



# Qazax tütünçüləri bol məhsul yetişdirmişlər

İqtisadi cəhətdən gəlirli sahə olan tütünçülüyün inkişaf etdirilməsi əhalinin güzəranına da müsbət təsir göstərmişdir. İndi tütün yetişdirilən rayonlardan biri Qazaxdır. Əlverişli torpaq-iqlim şəraitinin olması tütünçülüyün inkişafına təkan vermiş, insanların bu gəlirli sahəyə maraqlarını artırmışdır. Nəticədə bu il tütün istehsalı əvvəlki illərlə müqayisədə xeyli çoxalmışdır. "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın qəbulundan sonra rayonda bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Əkin sahələri genişləndirilmiş, daha məhsuldar sortların əkininə başlanılmışdır.

Əgər 2016-cı ildə cəmi 10 hektar sahədə tütün əkilmişdisə, 2017-ci ildə bu rəqəm 50 hektara çatdırılmışdı. Bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilməklə 80 tondan çox məhsul götürülmüşdür. Əldə etdikləri qazancdan razı qalan tütünçülər bu il əkin sahələrini genişləndirərək 60 hektara çatdırmışlar. Kosalar kəndində 32 hektar, Qazaxbəyli kəndində 8 hektar, İkinci Şıxlı və Çaylı kəndlərinin hərəsində 1 hektar, Birinci Şıxlı, Aşağı Salahlı, Hüseynbəyli, Daş Salahlı, Alpout kəndlərinin hər birində 2 hektar, Dəmirçilər kəndində 1,5 hektar, Cəfərli kəndində 2,5 hektar və Fərəhli kəndində 4 hektar tütün əkilmişdir.



Hazırda rayonda tütün yığımı davam edir. İndiyədək 8 tona yaxın quru tütün təhvil verilmişdir. Birinci Şıxlı "Kəndli fermer təsərrüfatı" MMC yığımda bu il də fərqlənib. Fərəhli kəndinin sakini Faxrəddin İbrahimov isə tütün sahələrindən 500 kiloqramdan çox məhsul toplamışdır.

Hazırda rayonda yığımla bərabər qurudulma prosesi gedir. Yaxın vaxtlarda fermerlər qurudulmuş tütünün təhvilinə başlayacaqlar.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Azərbaycan Mərakeş Müqaviləsinə qoşulur

Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) üzv dövlətlərin Baş Assambleyasının cari ilin oktyabrın əvvəlində İsveçrənin Cenevrə şəhərində öz işini başa çatdırmış 58-ci toplantısında iştirak edən Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov ölkəmizin “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında müvafiq sənədləri ÜƏMT-in Baş direktoru Frensis Qarriyə təqdim edib.

Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müqavilə dərc olunmuş əsərləri kor, görmə qüsurlu və çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün daha əlçatan etmək məqsədilə 2013-cü il iyunun 27-də Mərakeş Krallığının Mərakeş şəhərində qəbul edilib. Bu müqavilənin qəbul edilməsi ilə kor və digər görmə əlilliyi olan şəxslərin bu cür əlilliyi olmayan şəxslərlə bərabər əsasda öz seçiminə uyğun hər cür informasiya və ideyaları axtarmaq, əldə etmək və yaymaq azadlığının təmin edilməsinə, eləcə də onların təhsil almaq imkanlarını məhdudlaşdıran problemlərin adekvat həllinə şərait yaradılıb.

Müqavilə ilə nəzərdə tutulmuş yeni hüquqi çərçivə kor və digər görmə əlilliyi olan şəxslərin elm, ədəbiyyat və incəsənət əsərlərindən istifadəsinə beynəlxalq səviyyədə təminat verir, belə şəxslər üçün əsərlərin mümkün əlçatan formatlarda çatışmazlığının aradan qaldırılmasına və bu nüsxələrin transsərhəd mübadiləsinə imkan yaradır.

Mərakeş Müqaviləsində iştirak ölkəmizin bu sahədə beynəlxalq əlaqələrinin daha da genişlənməsinə, eləcə də bu kateqoriyadan olan insanların cəmiyyətə daha sıx inteqrasiya edilməsinə və onların potensialından istifadənin səmərəsinin artırılmasına kömək edəcək. Eyni zamanda, müəlliflərin hüquqlarının səmərəli qorunması və geniş ictimaiyyətin maraqları arasında, xüsusən təhsil, tədqiqat və informasiya almaq sahəsində balansın yaradılmasına ehtiyacı və belə balansın kor və digər görmə əlilliyi olan şəxslərə münasibətdə nəzərə alınmasını təmin edəcək.

Qeyd edək ki, cari il iyunun 12-də Prezident İlham Əliyev “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb. Azərbaycan Mərakeş Müqaviləsinə qoşulan 42-ci ölkə olur. Azərbaycan Respublikası üçün bu müqavilə 2018-ci il dekabrın 24-dən qüvvədə olacaq.






# Alim QULİYEV: “Dövlət proqramının icrası ölkənin nağdsız cəmiyyətə transformasiyasına mühüm töhfə verəcək”

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı” təsdiq edilib. Dövlət proqramının strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir. Sərəncama əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankı dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndiricisi təyin olunub. Sərəncamın icrası ilə bağlı AZƏRTAC-ın suallarını Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev cavablandırıb. Müsahibəni təqdim edirik.



***- “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası Mərkəzi Banka həvalə olunub. Bu sahədə iş necə təşkil ediləcək?***

- Dövlət proqramında tədbirlərin icra mexanizmi, əsas icraçı təşkilatların, əlaqələndiricinin və qiymətləndirmə və monitorinqi aparacaq qurumun vəzifə və öhdəlikləri müəyyən edilib. Əsas icraçı təşkilat tədbirlərin yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla rüb üzrə görülmüş işlərə dair hesabatı Mərkəzi Banka təqdim edəcək. Əlaqələndirici qurum kimi Mərkəzi Bank dövlət proqramının icrasına nəzarət, yaranan problemlərin həlli və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkilini həyata keçirəcək. Mərkəzi Bank tərəfindən əsas icraçı təşkilatlardan alınan hesabatlar təhlil ediləcək və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim ediləcək. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsi isə Mərkəzi Bankın sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək. Hazırda mərkəz ilə işin təşkilinin reqlamenti üzərində işlənilir. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə Mərkəzi Bank ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək.

***- Dövlət proqramı qarşıya hansı əsas hədəflər qoyur?***

- Proqram bütövlükdə ölkənin nağdsız cəmiyyətə transformasiyasına dair təfsilatlı yol xəritəsini ehtiva edir. Onun icrası ilə ilk növbədə “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan hədəflərə nail olunacaq. Qiymətləndirmələrə görə, nağdsız ödənişlərin illik həcmi təqribən 17 milyard manat artacaq. Bu isə nağdsız ödənişlərin payının hər il 7 faiz artmasına imkan verəcək. Nəticədə bütövlükdə iqtisadi dövriyyələrdə nağd ödənişlərin payı 74 faizdən 40 faizə qədər azalacaq.

Nağd iqtisadiyyatın azalması ilə iqtisadi subyektlər arasında maliyyə şəffaflığı artacaq, vergidən yayınma halları azalacaq, bank sektorunun maliyyə resurs bazası güclənəcək, elektron bank əməliyyatlarının çeşidi, əlçatanlığı və elektron bankçılıqdan istifadə edən əhalinin xüsusi çəkisi, elektron ticarətin həcmi artacaq. Ümumilikdə dövlət proqramının qəbulu və uğurlu icrası ən qısa müddətdə ölkəmizdə nağdsız cəmiyyətin əsaslarını yaratmağa, iqtisadi münasibətlərdə rəqəmsal transformasiyaya ciddi töhfə verəcək.

***- Bank sektorunun yenidən canlandırılması da mühüm vəzifə olaraq qarşıya qoyulub. Bank sektorunda maliyyə dayanıqlığının bərpa edilməsi üçün hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?***

- Rəqəmsal ödənişlərin genişləndirilməsinin əsas şərtlərindən biri də inkişaf etmiş bank sistemidir. Maliyyə vasitəçiliyinin inkişaf etdiyi ölkələrdə nağdsız ödənişlərin həcmi adətən daha yüksək olur. Məhz bu səbəbdən dövlət proqramının əsas istiqamətlərindən biri də bank sektorunun yenidən canlandırılması, maliyyə dayanıqlığının bərpa edilməsidir. Buraya bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi və aktiv pul bazarının formalaşdırılması prioritetləri üzrə tədbirlərin həyata keçirilməsi daxildir.

Bank sektorunun sağlamlaşdırılması məqsədilə bankların kapitalizasiyasının nəzarətdə saxlanılması, problemli aktivlərin idarə edilməsi, bankların fəaliyyəti üzərində nəzarətin və kreditorların hüquqlarının müdafiə mexanizminin təkmilləşdirilməsi, pul bazarının və qiymətli kağızlar bazarının inkişafı kimi əhəmiyyətli tədbirlərin icrası nəzərdə tutulur.

Bu tədbirlər çərçivəsində 2018-2020-ci illər ərzində əlavə kapitallaşmaya ehtiyacı olan banklarla kapitalizasiya planları təsdiq ediləcək və müəyyən olunmuş vaxt çərçivəsində kapitalizasiya prosesi tamamlanacaq. Banklararası bazarda likvidliyin monitorinqi və proqnozlaşdırılması üzrə daha təkmil alətlər işə salınacaq. Problemli aktivlərin satışını stimullaşdırmaq üçün yeni mexanizmlər yaradılacaq, alternativ olaraq mərkəzləşdirilmiş qaydada restrukturizasiya alətləri hazırlanacaq. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi üzrə xüsusi plan hazırlanıb həyata keçiriləcək.

***- Qiymətli kağızlar bazarı bu prosesdə nə kimi rola malikdir?***

- Dövlət proqramında yer alan 16 prioritetdən biri də aktiv pul bazarının formalaşdırılmasıdır. Aktiv pul bazarı maliyyə vasitəçiliyinin gücləndirilməsində və iqtisadiyyatın maliyyə resurslarına tələbatının daha dolğun ödənilməsində əhəmiyyətli rol oynayır, maliyyə institutları tərəfindən likvidliyin effektiv idarə olunmasına şərait yaradır. Pul bazarının mövcudluğu şəraitində likvidlik maliyyə institutları arasında daim hərəkət edir, banklar iqtisadiyyatı daha fəal şəkildə kreditləşdirirlər.

Aktiv pul bazarının formalaşdırılması istiqamətində nəzərdə tutulan üç tədbirdən biri də qiymətli kağızlar bazarını dərinləşdirmək və bu əsasda banklararası REPO bazarını inkişaf etdirməkdir. Bu tədbir çərçivəsində qiymətli kağızlar bazarı və banklararası pul bazarı üzrə girov bazasının genişləndirilməsi, dövlət qiymətli kağızlarının həcminin və çeşidinin artırılması imkanları təhlil olunacaq. Dövlət qiymətli kağızlarının və Mərkəzi Bankın qısamüddətli notlarının həm ilkin, həm də təkrar bazarında əməliyyatların vahid elektron ticarət platformasına keçirilməsi imkanı yaradılacaq.

***- Dövlət proqramında qeyd olunan aktual məsələlərdən biri də rəqəmsal sahibkarlığın inkişaf etdirilməsidir. Biznes subyektləri arasında nağd pul dövriyyəsinin aradan qaldırılması üçün nə kimi işlər görüləcək?***

- Ölkədə dövriyyədə olan nağd pulun çəkisini müəyyən etmək üçün aparılan qiymətləndirmələr göstərir ki, 2016-cı il üzrə 180 milyard ümumi dövriyyənin 152 milyard manatını biznesin ümumi gəlirləri təşkil edib. Sahə üzrə araşdırmaların nəticələri bu gəlirlərin 109 milyard manatının (72 faiz) nağd gəlirlərdən ibarət olduğunu üzə çıxarıb.

Biznes subyektləri arasında nağd pulun çəkisinin azaldılması üçün ilk növbədə biznesin nağd puldan istifadə motivləri aradan qaldırılmalı, institusional mühitin nağdsız ödənişlərin inkişafına əlverişliyi təmin olunmalı, ədalətli rəqabətə əsaslanan bazar strukturu formalaşmalı, vergi sisteminin effektivliyi artırılmalı, vergidən yayınmağa imkan verən hallar aradan qaldırılmalıdır.

Bu baxımdan dövlət proqramının əsas istiqaməti rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu istiqamət çərçivəsində əlverişli biznes mühitinin inkişaf etdirilməsi, səmərəli vergi sisteminin təşviq olunması, sosial sığorta ayırmalarının diferensiallaşdırılması və təkmilləşdirilməsi prioritetləri nəzərdə tutulur.

Əlverişli biznes mühitinin daha da inkişaf etdirilməsi məqsədilə rəqabət mühitinin gücləndirilməsi, kiçik və orta müəssisələrin rəqabət qabiliyyətinin artırılması, vergitutma mexanizminin sadələşdirilməsi, sadələşdirilmiş vergi sisteminin tədricən ƏDV sistemi ilə əvəzləşdirilməsi və ƏDV dərəcəsinin diferensiallaşdırılması, vergi auditinin və hesabatlılığının effektivliyinin artırılması, əməkhaqlarının rəsmiləşdirilməsinə işəgötürənlərin və işçilərin həvəsləndirilməsi kimi mühüm tədbirlər həyata keçiriləcək.

***- Bu il avqustun 1-nə olan məlumatlara görə, ölkədaxili ödəniş kartları ilə aparılan əməliyyatların həcminin yalnız 9 faizi elektron ticarətin payına düşür. Bunun səbəbi nədir, əhali niyə nağd ödənişlərə üstünlük verir?***

- Elektron ticarətlə aparılan ödənişlərin həcminin aşağı səviyyədə olmasının əsas səbəbləri sırasına ölkəmizdə elektron ticarət platformalarının məhdudluğu, stimullaşdırıcı tədbirlərin lazımi səviyyədə təşkil edilməməsi, əhalinin nağd pulla ödəniş vərdişi, regionların, xüsusilə kənd yerlərinin müasir rabitə infrastrukturu ilə tam əhatə olunmaması kimi amillər daxildir.

Lakin qeyd edilməlidir ki, son vaxtlar nağdsız ödənişlərin həcminin artırılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülüb. Nəticədə ölkədaxili elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi son üç il ərzində 5,7 dəfə, ödəniş kartları ilə aparılan nağdsız ödənişlərin həcmi isə 2,8 dəfə artıb. Dövlət Proqramının icrası bu sahədə əsaslı dönüşə gətirib çıxaracaq.

***- Yaxın perspektivdə hansı yeni ödəniş sistemlərinin və texnologiyaların tətbiqi gözlənilir?***

- Ödəniş sistemləri və xidmətləri davamlı inkişaf edən sahədir. Dövlət proqramı çərçivəsində də yeni texnologiyaların ölkədə tətbiqi üzrə mühüm tədbirlər həyata keçiriləcək.

Rəqəmsal texnologiyaların yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə nağdsız ödəniş əməliyyatlarının effektivliyini yüksəltmək və likvidlik riskini azaltmaq məqsədilə yeni, innovativ ödəniş üsullarının (“ani ödəniş”, “mobil ödəniş”, “mobil pul kisəsi” və s.) tətbiqi geniş yayılıb. Bu istiqamətdə nəzərdə tutulan tədbirlərdən biri də 24/7/365 rejimli ani ödəniş sisteminin yaradılmasıdır. Müasir dövrün əsas çağırışı ödəniş xidmətlərinin hər yerdə, hər zaman əlçatan olması və əməliyyatlar üzrə tam hesablaşmaların 24*7*365 rejimində ödənişlərin həyata keçirildiyi anda başa çatdırıla bilməsidir. Hazırda dünyanın 32 ölkəsində (İngiltərə, Danimarka, Finlandiya, Norveç, İsveç, İsveçrə, Polşa, Cənubi Koreya, Hindistan, Sinqapur və d.) artıq “Instant Payment System”, “Fast Payment System” adlanan müvafiq sistemlər tətbiq edilir, 16 ölkədə isə onun tətbiqinə hazırlıq görülür.

Bu sistemin yaradılması ölkənin ödəniş ekosistemi fiziki şəxslər, biznes strukturları və dövlət orqanları arasında aparılan qarşılıqlı ödəniş əməliyyatları üzrə hesablaşmaların 24*7*365 rejimində 5-10 saniyə ərzində tam başa çatdırılmasına imkan verəcək. İstifadəçilər istənilən vaxt və istənilən vasitələrlə bir-birlərinə nağdsız ödəniş edə biləcəklər. Eyni zamanda ölkənin təsərrüfat subyektlərində müasir mobil həllərin tətbiqi mümkün olacaq. Yaradılan imkanlar isə iqtisadi subyektlər arasında rəqəmsal ödənişlərin genişləndirilməsinə, ölkədə nağd iqtisadiyyatın azalmasına və nağdsız ödənişlərin artmasına təkan verəcək.

Digər mühüm layihə ölkənin bank sektorunda təklif olunan xidmətlərin yeni innovativ müstəvidə elektronlaşdırılması, elektron xidmətlərin miqyasının genişləndirilməsi üçün rəqəmsal identifikasiya sisteminin Blockchain platformasında yaradılmasıdır. Son zamanlar Blockchain platforması vasitəsilə həyata keçirilən həllər özünü doğrultduqca bu texnologiyanın yaxın və uzaq qonşu ölkələrdə implementasiyası artmaqdadır. Blockchain texnologiyası biznes proseslərinin həyata keçirilməsi zamanı fəaliyyətin şəffaflığının və operativliyinin təmin edilməsi məqsədilə istifadə olunur. Azərbaycanın bank sektorunda həyata keçirilən xidmətlərin keyfiyyətinin artırılması, müştəri məmnunluğunun yüksəldilməsi məqsədilə Mərkəzi Bank ölkədə ilk dəfə olaraq pilot Blockchain platforması üzərindən layihənin reallaşdırılmasına başlayıb. İlin sonunadək layihənin pilot fazasının tamamlanması nəzərdə tutulur.

Dövlət başçısının ölkədə rəqəmsal iqtisadiyyat quruculuğuna, rəqəmsal ödənişlərin inkişafına yönəldilən güclü siyasi dəstəyi müxtəlif qurumlarla qarşılıqlı fəaliyyəti tələb edən bu layihələrin uğurlu icrasına zəmin yaradır.

***- Azərbaycanda kriptovalyutaya münasibət dəyişilə bilərmi?***

- Qeyd edilməlidir ki, kriptovalyutaların ödəniş aləti kimi istifadə edilməsində çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi, fırıldaqçılıq halı nəticəsində itirilmiş vəsaitin geri qaytarıla bilinməməsi, heç bir təşkilat tərəfindən aparılan əməliyyatlara zəmanətin verilməməsi, bu istiqamətdə istifadəçilərin hüquqlarının qorunmaması və s. kimi risklər mövcuddur. Mərkəzi Bank kriptovalyuta problemlərini və bu sahədə tənzimləmə üzrə beynəlxalq təcrübəni diqqətlə izləyir. Kriptovalyuta ilə bağlı Mərkəzi Bankın mövqeyi konservativdir. Kriptovalyuta yüksək riskli investisiya aktividir.

# Hava hücumundan müdafiə bölmələrinin təlim-məşqləri keçirilib



Silahlı Qüvvələrin ümumqoşun birlik və birləşmələrinin hava hücumundan müdafiə bölmələrinin planlı təlim-məşqləri keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, praktiki döyüş atışları ilə icra olunan məşqlərdə şəxsi heyət şərti düşmənin hava hədəflərini aşkarlayaraq onları daşınan zenit-raket komplekslərindən məhv ediblər.

# Paraşütçülərin hazırlığı yoxlanılıb



Azərbaycan Ordusunun bölmələri ilə paraşüt hazırlığı üzrə məşqlər keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşqlərdə şəxsi heyət tərəfindən müxtəlif tapşırıqlar yerinə yetirilib, hərbi qulluqçuların döyüş vərdişləri təkmilləşdirilib.

# Azərbaycan XİN A.Hakopyanın Rusiyadan olan bir qrup qadın ilə Dağlıq Qarabağa səfərinə münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti Anna Hakopyanın Rusiyadan olan bir qrup qadın ilə ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfəri barədə açıqlama yayıb.

AZƏRTAC-ın məlumatına görə, açıqlamada deyilir: “Qadınlar sülh naminə” təşəbbüsü barədə artıq səsləndirilmiş mövqeyimizə əlavə olaraq təkrar edirik ki, sülh istəyənlər müharibəni davam etdirməməli, insan itkisinin qarşısını almaq istəyənlər digər dövlətin ərazilərini hərbi işğal altında saxlamamalı və nəhayət, qadınları və anaları sülhə dəvət edənlər şəxsən öz övladlarını Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə hərbi xidmətə göndərməməlidirlər.

Azərbaycan Respublikasının qanunlarını ciddi pozaraq ölkəmizin işğal edilmiş ərazilərinə qanunsuz səfər edən əcnəbi vətəndaşlara gəldikdə isə, hazırda onlarla bağlı məlumat araşdırılır və bu şəxslər müəyyənləşdirildikdən sonra onların adlarının ölkəmizə girişi arzu olunmayan şəxslər siyahısına əlavə edilməsi ilə bağlı müvafiq qərar qəbul olunacaq”.

9 oktyabr Ümumdünya Poçt Günüdür

# Çapar, carçı, poçtalyon...

## Əsrlər boyu adları dəyişsə də, onların fəaliyyəti eyni qalır

**"- Kim istəyirsən ol, amma çapar olma.**
**- Niyə?**
**- Çünki çaparın peşəsi ağır və təhlükəlidir, yolda ona həm heyvanlar, həm də insanlar hücum edər..."**

**Bu sözlər Misirdə arxeoloqların tapdığı qədim bir papirusda bir nəfərin oğluna ünvanladığı vəsiyyətində həkk olunub. Atanın oğluna məsləhət bilmədiyi bu peşənin qədim tarixi var. Elə o vaxt da şad və bəd xəbəri çaparlar çatdırırlarmış...**

### 21 ilin çaparı...

9 oktyabr Ümumdünya Poçt Günüdür. 1874-cü il oktyabrın 9-da Berndə (İsveçrə) yaradılmış Ümumdünya Poçt İttifaqının 14-cü konqresinin qərarı ilə bu bayram hər il ittifaqın yaradıldığı gün keçirilir.

Bu əlamətdar gündə bu sahədə 21 illik iş stajı olan Məmmədəli dayı ilə söhbətləşmək qərarına gəldik və qocaman poçtalyonun xatirələrini bölüşdükcə peşəsini necə sevdiyinin şahidi olduq.



Əslən Qubadan olan Məmmədəli Rüstəmov 1950-ci il oktyabrın 16-da Zıxır kəndində anadan olub. 1971-ci ildə S.M Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) mexanika və riyaziyyat fakültəsi üzrə təhsil alıb. Hərbi xidmətdən sonra xeyli müddət Bakı Metro Tikinti İdarəsində işləyib. 1997-ci ildə isə poçtalyon kimi fəaliyyətə başlayıb.

"Azərpoçt" MMC-nin 1 saylı Poçt Filialının 10 saylı poçt şöbəsində poçtalyon işləyən Məmmədəli dayı hələ uşaq ikən bu sahəyə çox maraq göstərirmiş:

- Müharibədən sonrakı illərdə poçtalyon dövrü mətbuat, məktublar gətirəndə insanların necə sevindiyini görürdüm. Qardaşım da həmin vaxt hərbi xidmətdə idi və onun məktubunu almaq üçün səbirsizliklə poçtalyonun yolunu gözləyirdik. Fikirləşirdim ki, mən də poçtalyon olub insanları sevindirəcəm. 23 ildir rabitə sahəsindəyəm. Onun 21 ilini poçtalyon kimi fəaliyyət göstərmişəm.

### İndi o həyəcan qalmayıb...

Hər gün sübh tezdən göndərişləri paylamağa başlayan Məmmədəli dayı gün ərzində xeyli ünvan gəzir və bütün məktubları qısa zaman çərçivəsində ünvanlarına çatdırmaq üçün çalışır:

- Yüksək texnologiyalar inkişaf etdiyindən insanlar arasında məktublaşmaq həvəsi, o həyəcan qalmayıb. İnsanlar indi daha çox mobil telefon vasitəsilə bir-birinə sözünü çatdırırlar. Ancaq o dövr bir başqa idi. Onda yazdığın hər cümlənin məsuliyyəti də böyük idi. Yazdınsa, silə bilməzdin. Diqqət yetirirdim ki, birdən başqa formada yazaram, həmin adam oxuyar pis olar və ya həyəcanlanar. Məktub yazmaq bir həyacan idi, bu gün o hiss keçib klaviaturaya. O dövrün öz dəyərləri var idi. Səbirsizliklə poçtalyonun nə vaxt gələcəyini gözləyirdik. Amma indi telefonla istədiklərini yazıb, silə də bilirlər... Bu gün fərq ondadır ki, məktublaşmaların 70-80 faizi rəsmidir. Bizim şöbə 4 xidməti sahədən ibarətdir. Hər poçtalyonun öz xidməti sahəsi var. Xidməti sahəmdə 12 dövlət idarəsi, 8 bank və bank şöbəsi, 100-ə qədər böyük şirkət, 25 min əhali yaşayır...

### Məni səsimdən tanıyırlar, üzümə qapı açmayanlar da olur

Məmmədəli dayı deyir ki, onu doğması kimi qəbul edib evinə qonaq edənlər də olur, üzünə qapı açmayanlar da. Əgər poçtalyonun göstərdiyi xidmət yaxşıdırsa, yaxşı da qarşılanır. Bəzi ailələr onu səsindən tanıyır və dərhal deyirlər ki, Məmmədəli dayı gəldi:

- Artıq çoxuyla doğmalaşmışıq. Ancaq işə başladığım ilk aylarda üzümə qapı açmayanlar da olurdu. Xüsusilə, evin xanımı həyat yoldaşı evdə olmadığından qapını açmayıb. İndi bu sarıdan əziyyət çəkmirəm. Açmasa, qapıya bildiriş qoyuram ki sizə məktub var, xahiş olunur, poçta gələsiz. Bir neçə adam var deyir, qapını döyməyinizdən tanıyırıq, sizi... Hətta evində ziyafət olanda məni içəri də dəvət edirlər. Əcnəbilərə də məktub çatdırıram. Onlarla ünsiyyət zamanı rus dilində danışıram, əksəriyyəti rus dilini başa düşür. İngiliscə də müəyyən sözləri öyrənmişəm.

### Sevgililərin məktubları...

Məmmədəli dayının sözlərinə görə, hazırda şəxsi məktublar az da olsa var. Məsələn, qohumu xaricdə yaşayanlar bir-biri ilə məktublaşırlar. Hətta təcrübəsində bir-iki dəfə də sevgililərin məktublaşmasının şahidi olub:

- Günlərin bir günü bir qız gəldi yanıma ki, sizdən bir xahişim olacaq. Dedim, buyur. Qayıtdı ki, bəs, mənə bir məktub gələcək, onu özümə çatdırarsız, valideynlərim bilməsin. Sən demə, sevgilisindən məktub gözləyirmiş. Oğlan Almaniyada yaşayırdı. Məktub gələn günü aparıb özünə verdim. Çox sevindi...

15 il əvvəl şöbəmizə gün ərzində 300 məktub gəlirdi. İndi isə təxminən minə yaxın məktub olur. Gələn məktubların 70 faizi yol polisi, 25 faizi idarə, qalanları isə carçı məktublar sayılır. Ay ərzində əsgər məktubları da olur.

### Məktubu aparanda gördüm ki, qrup yoldaşım...

10 il əvvəl yaşadığı maraqlı xatirəsini bizimlə bölüşən Məmmədəli dayı içini çəkərək bəzi anların həyacanlı unudulmaz olduğunu deyir:

- Bir dəfə bir ünvana məktub aparmışdım. Qapını döydüm, açdılar. Məktubun üzərindəki ad, soyad tanış gəlirdi. Xanımından yoldaşını çağırmasını istədim, çünki məktub onun adına gəlmişdi. Gəldi və yerində donub qaldı. O, məni tanıdı, amma mən yox. "Məmmədəli, bu sənsən?" sualına təəccübləndim. Diqqətlə baxandan sonra tanıdım ki, qrup yoldaşımdır. Çünki neçə ildir görmürdüm. Görünüşcə dəyişmişdi. Bu çox xoş təsadüf oldu.

Xoşməramlı məktublar çatdıranda insanların gözündəki o təbəssümdə bizim də kiçik payımız olur deyə xoşbəxt oluruq. Məncə, hər bir poçt xidmətinin əsas işi insanları bir-birinə daha da yaxınlaşdırmaq və doğmalaşdırmaq, onlara unudulmaz hisslər yaşatmaqdır.

### Çox məyus olduğum anlar da olub...

Məmmədəli dayı 21 illik fəaliyyəti ərzində qara xəbər də çatdırmalı olub və o an yaşadığı məyusluğu dərin təəssüf hissi ilə xatırlayır:

- Bir-iki dəfə ailələrə şəhid məktubu çatdırmalı olmuşam.... Danışmaq çox ağırdır. Onda çox məyus olmuşdum. Təbii ki, məktub qara xəbərlə bağlıdır və verə bilmərəm kimi söhbət yoxdur. Bizim işimiz budur. Ancaq heç istəməzdim ailəyə həmin xəbəri mən verim. Ailədəki o reaksiyanı görmək heç yaxşı olmadı. Nə edəsən ki, məktubun növündən asılı olmayaraq onu çatdırmalıyıq. Gündə 100, elə də olur ki, 300 məktub çatdırırıq. Fiziki yorğunluq olur, amma psixoloji cəhətdən heç vaxt yorulmamışam.

### "Radar" məktublarından imtina edirlər

Bir neçə dəfə apardığı məktubu elə özü ilə geri qaytarmalı olub. Bu günə qədər heç bir göndərişi itirməyib. Ancaq imtina halları baş verib. Əsasən də yol polisindən gələn "radar" məktubu aparanda qəbul etməkdən imtina edirlər. Lakin belə olanda Məmmədəli dayı onlarla diskussiya apararaq sadəcə, imtina barəsində arayış yazdırır.

Məktublar müddətli və müddətsiz də olur. Yəni, müddəti bitəndən sonra hardan gəlir ora qaytarılır. Məhəmmədəli dayının yaddaqalan göndərişləri də olur:

- Hərbi xidmətdə olan övladlarından məktub gələndə valideynlər çox sevinir. Belə hallar könlümüzü açır. Elə olur ki, bayram günləri də işləyirik. Vacib məktub varsa, onu çatdırmalıyıq, çünki insanlar onun sayəsində işini tənzimləyir.

### Yarım saat liftdə qalmışam

İş zamanı qarşılaşdığı çətinlikləri bölüşən Məmmədəli dayı bir dəfə liftdə də qalıb. Qonşuların köməyi ilə yarım saat sonra liftdən çıxa bilib:

"Üç il idi işləyirdim. 9 mərtəbəli binaya məktub aparmışdım. Məktubu verib qayıdanda qaldım liftdə. Liftin qapısını döydüm, qonşular gəldi, məni səsimdən tanıdılar. Yarım saat qaldım içəridə.

Son vaxtlar hündürmərtəbəli binalarda qurulan domofonların 40 faizi işlək olmur. Bu halda bizim vaxtımız çox gedir. Belə problemlər də yaşayanda deyirlər ki, poçt xidməti ləng işləyir. Xeyir, sadəcə, onu ləngidən səbəblər ola bilər. Məsələn, poçt işçilərinin fəaliyyətindən asılı olmayaraq ləngiyə bilər. Hamı eyni peşəkarlıq nümayiş etdirə bilməz. Yaxşı poçtalyon olmaq üçün ilk növbədə, peşəkar olmalısan, dünyagörüşün olmalıdır. İnsanlarla ünsiyyət qurmağı bacarmaq, poçt qaydalarına, etik qaydalara əməl etmək lazımdır. Gənclərə də bu peşəni seçməyi tövsiyə edirəm".

Qeyd edək ki, Azərbaycanda ilk poçt kontoru 1818-ci il, iyunun 1-də Gəncədə yaradılıb. Daha sonra Quba, Naxçıvan, Şuşa, Şamaxı, Lənkəran, Şəki və Salyanda da poçt xidmətləri fəaliyyətə başlayıb. 100 il sonra - 1918-ci il oktyabrın 6-da isə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etdikdən 4 ay sonra Poçt və Teleqraf Nazirliyi yaranıb. 1992-ci ildən müstəqil Azərbaycanın ilk poçt markaları çıxır, ölkəmiz 1993-cü ildən isə Ümumdünya Poçt İttifaqının (ÜPİ) üzvüdür.

Yüksək texnologiyalar dövründə yaşamağımıza baxmayaraq, şəxsi və rəsmi xarakterli teleqramlar, eləcə də dövri nəşrlər hələ də poçtalyonlar tərəfindən çatdırılır. Həyatımızın çox proseslərində bu insanların iştirakını danmaq olmaz.

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş N.Rzazadənin və qeyrilərinin məhkəmə aktlarından verdikləri şikayətə baxılaraq icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun noyabrın 1-nə təyin edilmiş iclasında baxılacaq.

## Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Kəngərli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Bakıda bal yarmarkası fəaliyyət göstərir

Oktyabrın 8-də Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Arıçılar Assosiasiyası ilə birgə Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisində XIX Arıçılıq məhsullarının sərgi-satış yarmarkasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Anar Hüseynov jurnalistlərə müsahibəsində yarmarkaya respublika üzrə 371 sahibkardan 150 ton süzmə balın gətirildiyini, onun 5 tonunun isə çərçivə halında olduğunu söyləyib. A.Hüseynov qeyd edib ki, respublikamızın müxtəlif bölgələrindən gətirilən arıçılıq məhsulları Qida Təhlükəsizliyi Agentliyi tərəfindən yoxlanılaraq kodlaşdırılıb.

Ümumilikdə isə bütün bal məhsulları ekspertizadan keçirilərək 900 nümunənin keyfiyyətsiz olduğu aşkar edilib və xüsusi anbarlara yığılıb. Nazirlik nümayəndəsi balın satış qiymətinə heç kimin müdaxilə etmədiyini, bunu arıçıların özlərinin müəyyənləşdirdiklərini diqqətə çatdırıb.

Həmçinin vurğulanıb ki, ilk dəfə olaraq Azərbaycan Arıçılar Assosiasiyası da yarmarkanın təşkilatçısı qismində iştirak edir. A.Hüseynov əlavə edib ki, bal yarmarkasının ildə iki dəfə keçiriləcəyi barədə təkliflər olarsa, bu məsələyə baxıla bilər.

Qeyd edək ki, arıçılıq məhsulları yarmarkası oktyabrın 8-dən 28-dək Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski prospekti, 10 ünvanında (Tofiq Bəhramov stadionunun ərazisi) keçirilir.





# Yelkənli idman növündə yüksəliş mərhələsi

## Federasiya kuboku uğrunda yarış uğurla yekunlaşdı







**Son 15 ildə digər sahələrdə olduğu kimi, Azərbaycan idmanının tarixində də şanlı səhifələr yazılıb. Ötən dövr ərzində ölkəmizdə idmanın və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub.**

Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. İdman strukturunun yenidən qurulması, yeni-yeni idman obyektlərinin, olimpiya idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb.

Ölkəmizin bütün bölgələrində müasir idman infrastrukturu formalaşdırılıb. İdmançıların dövlət tərəfindən daim qayğı ilə əhatə olunması, onların bütün problemlərinin həll edilməsi, yüksək səviyyəli təlim-məşq toplanışlarının keçirilməsi onların beynəlxalq turnirlərdə yüksək nəticələr əldə etməsini təmin edir.

Prezident İlham Əliyevin ümummilli inkişafa xidmət edən siyasi xəttinin konturları həm də idmanın infrastrukturunun möhkəmləndirilməsini, müasirləşdirilməsini və idmanın inkişafını şərtləndirən digər tədbirlərlə müşayiət olunur. Bütövlükdə cəmiyyətdə idmançılara müsbət münasibət və böyük hörmət var. Bu gün paytaxtda və bölgələrdə müasir standartlara cavab verən olimpiya idman mərkəzlərinin fəaliyyət göstərməsi gənclərə, yeniyetmələrə, eyni zamanda, idmançılara yaradılan şəraitin parlaq nümunəsidir.

Sevindirici haldır ki, Azərbaycanın idman potensialı ildən-ilə daha da güclənir. Hər il beynəlxalq yarışlarda yüzlərlə medal qazanılır. İdmançılar müxtəlif beynəlxalq turnirlərdə yüksək nəticələr əldə edirlər. Təkcə ötən il atletlərimizin beynəlxalq yarışlarda 851 medal (onlardan 347-si qızıl medaldır) qazanmaları onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanmağa qadirdilər.

Azərbaycan Yelkənli İdman Federasiyasının rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində bu idman növü də ölkəmizdə uğurla inkişaf etməkdədir. Məhz rəhbərliyin əzmkarlığı sayəsində yelkənli idman növünə olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişməkdədir.

Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.











Məqsədlərə çatmaq üçün federasiya rəhbərliyi tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman üzrə qayıqların gətirilməsi, eyni zamanda, qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib.

Sevindirici haldır ki, artıq yelkənli idman növündə ölkədaxili yarışlar silsilə xarakteri daşımağa başlayıb. Azərbaycan Yelkənli İdman Federasiyası tərəfindən təşkil olunan Federasiya kuboku üzrə iki gün ərzində "Laser" və "Optimist" siniflərinin yarışı keçirilib, "Windsurf sinfi"nin nümayişi olub. Yarışda həmçinin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun "Laser-standard" sinifi üzrə komandası da iştirak edib. Çətin hava şəraitində gərgin mübarizə aparan yelkənçilər yarışı uğurla başa vurublar.

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışın yekununda "Optimist", "Laser 4.7", "Laser Standart" sinifləri üzrə yarışın qalibləri mükafatlandırılıblar. "Optimist" sinfi üzrə qaliblər Yelkənli İdman Federasiyasının üzvləri Ömər İsmayılov, Səxavət Əzimov və Fidan Ağazadə olublar.

"Laser 4.7" sinfi üzrə isə qalib adına da Yelkənli İdman Federasiyasının idmançıları İsmayıl Kərimov, Cavid Kərimov və Murad Allahverdi layiq görülüblər.

"Laser Standart" sinfi üzrə qaliblər isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun idmançıları Mixail Protasov, Tofiq Abdullayev və Ruslan Əzizov olublar.

Xatırladaq ki, yarış idman koordinatoru, hakim Burcu Algon Giorgianni, "Optimist" sinfinin baş məşqçisi Seyhun Yıldız, "Laser 4.7" sinfinin baş məşqçisi Tuğçe Subaşı, "Laser srandard" sinfinin baş məşqçisi Tatyana Srebnaya, köməkçi məşqçilər Aleksandr Knyazev, Anton Vilyayev tərəfindən idarə olunub.

Yelkənli İdman Federasiyası komandanın hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədi ilə təlim-məşq toplanışları da təşkil edir. Məşqlərin yüksək keyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi, 6 dünya və 4 Avropa çempionatının qalibi, 30 il məşqçi kimi fəaliyyət göstərən Dragan Gasic Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilmişdi.

Xatırladaq ki, Azərbaycanı hər zaman beynəlxalq yarışlarda uğurla təmsil edən Yelkənli İdman Federasiyasının yelkənçiləri Qazaxıstanın Aktau şəhərində keçirilən "Xəzər Kuboku Beynəlxalq Yelkən Yarışı"nda yüksək nəticələr göstərərək 1, 2, 3, 4 cü yerlər üzrə kuboklara sahib olublar. Təqdim olunan bütün kuboklara sahib çıxan yelkənçilərimizin yarışlarda fədakar iştirakı beynəlxalq səviyyəli məşqçilərin diqqətini cəlb edərək xüsusi rəğbətlə qarşılanmışdı. Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasından 4-cü yerdə qərarlaşaq yüksək nəticə göstərmişdi.

Şübhə yoxdur ki, yelkənli idman növü ölkəmizdə gələcəkdə daha da inkişaf edəcək və idmançılarımız Azərbaycana yeni-yeni uğurlar qazandıracaq. Çünki dövlət başçısı İlham Əliyevin ölkədə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində gördüyü genişmiqyaslı tədbirlər Azərbaycanı dünyaya idman ənənələri olan ölkə kimi də tanıtdırıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi uğurlarımızı artırmaqdadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Londonda Leyla Əliyevanın ingilis dilində nəşr edilmiş "Dünya yuxutək əriyir..." şeirlər kitabının təqdimatı olub

Oktyabrın 6-da Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla Əliyevanın "The World Dissolves like a Dream" ("Dünya yuxutək əriyir") şeirlər kitabı Londonda yerləşən Yunus Əmrə Mədəniyyət Mərkəzində ictimaiyyətə təqdim olunub.







AZƏRTAC xəbər verir ki, "Dünya yuxutək əriyir..." şeirlər kitabının "Ön söz"ünün müəllifi Azərbaycan Tərcümə Mərkəzinin İdarə Heyətinin sədri Afaq Məsuddur.

Tədbiri giriş sözü ilə açan Avrasiya Mədəniyyət Qrupunun sədr müavini Mark (Marat) Axmedjanov qonaqları salamlayıb və kitab haqqında məlumat verib.

Nəşrə daxil edilmiş 130 şeiri ingilis dilinə tanınmış ingilis şair və tərcüməçiləri Karolin Valton və Anna Mariya Cekson çeviriblər.

Tədbirdə kitabın redaktoru və tərcüməçisi Karolin Valton çıxış edərək deyib: "Bu vaxta qədər Leyla Əliyevanın yaradıcılığı haqqında heç bir məlumatım yox idi, lakin şeirlərinin tərcüməsi zamanı onun və Azərbaycan poeziyasının necə zəngin və dərin olduğunu anladım. Şeirlərin tərcüməsi zamanı çox böyük zövq aldım, Leyla Əliyevanın necə aydın və çoxşaxəli yaradıcılığının olduğunu gördüm. Onun çox gənc olması məni təəccübləndirdi. Leyla Əliyevanın başqa əsərləri ilə də tanış olmaq istəyirəm".

Daha sonra tərcüməçi kitabdan bir neçə şeir oxuyub və dinləyicilərin suallarını cavablandırıb.

Nəşrdə müəllifin "Mənə güc ver, Allahım", "Elegiya", "Tək deyilsən", "Sevgi və nifrət", "Kor olmuşam", "Şeirim", "İnsanlar", "Getmə", "Bakı" və s. şeirləri ilk dəfə olaraq ingilis oxucularına çatdırılır.

Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği istiqamətində Tərcümə Mərkəzi tərəfindən ərsəyə gətirilmiş kitab Böyük Britaniyanın "Hertfordşir Press LTD" nəşriyyatında çap edilib.

# "Avtolüks Azərbaycan" şirkəti Bakıda ixtisaslaşmış Jaguar, Land Rover mərkəzi açacaq

*Azərbaycanda premium markaların sahiblərinə xidmət göstərəcək Jaguar, Land Rover markalarının qabaqcıl satış və xidmət mərkəzi inşa ediləcək*

**Ölkədə Jaguar, Land Rover-in pərakəndə satışını həyata keçirən yeganə rəsmi şirkət olan "Avtolüks Azərbaycan" eksklüziv olaraq bu premium markalarını təqdim etmək məqsədilə ixtisaslaşmış diler mərkəzi təsis edəcək. Jaguar, Land Rover nümayəndəliyi şirkətin Azərbaycanda lüks avtomobillərin aparıcı distribüteri kimi mövqeyini möhkəmləndirir.**




Jaguar, Land Rover tərəfindən müəyyən edilmiş korporativ qaydalara uyğun olaraq yeni diler mərkəzinin binası ARCH dizayn konsepsiyasına uyğun olacaq. Bu konsepsiya təkcə dizaynı görmək və hiss etməklə məhdudlaşmır, həm də müştəri təcrübələrini ehtiva edir. Məqsəd müştərilərin Jaguar, Land Rover satış salonunu və ya servisini ziyarət edərkən dərin təəssürat əldə etməsinə nail olmaqdır.

Mərkəzi giriş qalereyası ilə diqqət çəkən satış salonu markaların model cərgəsini əks etdirməklə Jaguar, Land Rover-in 21-ci əsrdəki eleqant sadəliyinə əsaslanan korporativ ruhunu göstərən zərif sadəliyə malik olacaq.

"Avtolüks Azərbaycan" şirkətinin direktoru Mark Pocock bildirdi ki, satış salonlarına daxil olan müştərilər Jaguar, Land Rover-in praktik lüks dizayn fəlsəfəsinə əsaslanan interyerlə qarşılaşacaqlar.

Eyni anda 15 avtomobil qəbul edə biləcək yeni servis mərkəzində Jaguar, Land Rover-in orijinal ehtiyat hissələrinin satışı da həyata keçiriləcəkdir. Yeni avtomobillərin satış salonu birinci mərtəbədə yerləşəcək. Binanın ikinci mərtəbəsində isə Jaguar, Land Rover-in təsdiqlənmiş ikinci əl avtomobillərinin satış salonu fəaliyyət göstərəcək.

Hər növ müasir avadanlıqlarla təchiz olunmuş avtoservis Jaguar, Land Rover-in bütün standartlarına cavab verir və markaların təlim üzrə tələblərinə uyğun olaraq ciddi təlim keçmiş ixtisaslı texniki işçilərlə təchiz edilmişdir.

İkinci mərtəbədə yerləşən müştəri otaqlarında, istirahət zonası, zəruri aksesuarların nümayiş sahələri və onlayn olaraq arzuolunan virtual modeli faktiki olaraq yaratmağa imkan verən konfiqurator zonası fəaliyyət göstərəcək.

Yüksək texnologiya və gözoxşayan dizayn sahəsində bazar liderlərindən olan Jaguar və Land Rover markalarının bir sıra heyranedici yenilikləri tezliklə Azərbaycana gətiriləcək və ölkəmizdə ən məşhur və arzuolunan modellər sırasında olacaqdır.

Model cərgəsinin aparıcı nümayəndələri olan fantastik və bir sıra mükafatlara layiq görülmüş Jaguar XJ, Jaguar XE və Jaguar XF kimi lüks avtomobillər ARCH mərkəzində möhtəşəm təəssürat bağışlayacaq Jaguar guşəsinin bəzəyi olacaqlar. Bu modellərlə yanaşı, Jaguar markasının ilk tam yolsuzluq avtomobili olan məşhur Jaguar F-PACE SUV və Jaguar-ın ilk kompakt yolsuzluq avtomobili olan Jaguar E-PACE də nümayiş etdiriləcəkdir. Öz irsinə sadiq qalmaqla, Jaguar-ın satış salonunda bütün çeşidlərini təqdim etmək məqsədilə Jaguar-ın idman avtomobili - möhtəşəm F-TYPE modeli də yer alacaqdır.

Land Rover-in satış salonunda mükafatlara layiq görülmüş modellərin ən son versiyaları təqdim olunacaq. Bunlar 2018-ci ildə Ümumdünya Avtomobil Dizaynı Mükafatına layiq görülmüş Range Rover Evoque, Range Rover Velar, dinamik Range Rover Sport və eleqant Range Rover modelləridir. Salonda həmçinin çevik Land Rover Discovery ailəsinə məxsus avtomobillər, o cümlədən Land Rover Discovery Sport və iriqabaritli Land Rover Discovery modelləri nümayiş etdiriləcəkdir.

Yeni və ya ikinci əl avtomobil olmasından asılı olmayaraq, alınan hər bir avtomobil üçün kompleks xidmət müqavilələri bağlanılacaq. Jaguar, Land Rover-in təsdiqlənmiş avtomobillərinə müştəri məmnuniyyətini təmin etmək və bütün narazılıqları aradan qaldırmaq məqsədilə uyğunlaşdırılmış uzunmüddətli zəmanət paketləri tətbiq ediləcəkdir.

"Avtolüks Azərbaycan"ın ənənəvi dəyəri bazarı ən yaxşı məhsullarla və xidmətlərlə təmin etmək və bazarda iştirakını genişləndirməkdir. Jaguar, Land Roverin korporativ dəyərlərinə tam sadiq qalaraq "Avtolüks Azərbaycan"ı Azərbaycanda müştərilərin üz tutduğu əsas satış məntəqəsinə çevirmək üçün var gücümüzlə və uğura doğru can atırıq", - deyə cənab Pocock öz nitqini yekunlaşdırdı.

# Beynəlxalq tədbirlər xalqlar arasında dostluğu möhkəmləndirir

Ölkəmizdə keçirilən beynəlxalq simpoziumlar, konfranslar, festivallar, qlobal forumlar, sərgilər, idman yarışları, bir sözlə, möhtəşəm tədbirlər Azərbaycanın ictimai rəydə dəyərinin, dünya birliyi və təşkilatları qarşısında qazandığı nüfuzunun ifadəsidir. Belə tədbirlər eyni zamanda xalqlar arasında dostluğu möhkəmləndirir, yeni ələqələrə körpü salır. Dünyanın müxtəlif ölkələrinin Azərbaycana marağının artması respublikamızın müstəqil siyasi gücə, iqtisadi inkişafa, milli dəyərlərə malik olmasından, tolerant və sülhsevər dövlət kimi tanınmasından xəbər verir.



Beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsində, coğrafiyasının genişlənməsində və təşkilində Heydər Əliyev Fondunun xüsusi rolu var. Beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, zəngin musiqi mədəniyyətimizin, incəsənətimizin, tarixi mədəni irsimizin dünya ictimaiyyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən beynəlxalq tədbirlər artıq ənənəyə çevrilərək ölkəmizin nüfuzunu ildən-ilə artırır. Heydər Əliyev Fondu ölkəmizin musiqi irsinin qorunub saxlanılması və təbliği yolunda bir sıra iri layihələri ilə dünyada əks-səda doğurub. Son illər bir-birinin ardınca fondun dəstəyi ilə həyata keçirilən tədbirlərin miqyası genişlənib. Belə ki, Beynəlxalq Muğam Müsabiqəsi, "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı, Pianoçuların Beynəlxalq Festivalı, Beynəlxalq Mstislav Rostropoviç Festivalı və onlarla belə möhtəşəm tədbir Azərbaycanın milli dəyərlərinin təbliğində önəmli yer tutur.

Keçirilən növbəti Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyanın müxtəlif qitələrindən olan musiqiçiləri ölkəmizə cəmləşdirdi. Festival çərçivəsində yerli əhali və turistlər Qəbələdə rəngarəng musiqi nömrələrindən, o cümlədən flamenko, caz musiqisindən, əlbəttə ki, klassik əsərlərdən zövq aldılar. Festival öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini Qəbələyə cəlb edə bildi. Musiqi bayramında Rusiya, İsrail, ABŞ, İsveçrə, Avstriya, Kuba, Macarıstan, Türkiyə, İspaniya, İtaliya və Gürcüstan kimi ölkələrdən dünya şöhrətli dirijor, ifaçı və kollektivlər, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri iştirak etdilər.

Möhtəşəm mədəniyyət layihələrindən biri kimi beynəlxalq aləmdə böyük əks-səda doğuran Qəbələ Beynəlxalq Musiqi Festivalı musiqimizin inkişafına, təbliğinə verilən töhfə olmaqla həm də şəhərimizi dünyanın musiqi paytaxtına çevirib. Azərbaycan xalqının zənginliyi ilə bağlı faktlar dünyanın müxtəlif qitələrinə ötürülür. Dünyanın ən qədim sivilizasiyalarından birinin - Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ hər bir dövrün və mədəniyyətin izini daş yaddaşına həkk edən çox gözəl və müasir məkan kimi yaddaşlara həkk olunur.

2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı elan olunan Qəbələdə indiyədək onlarla mədəni-humanitar tədbir keçirilib. Gözəl hotellər, yollar, hava limanı və digər müasir qurğular tədbirlərin yüksək səviyyədə təşkil olunmasına şərait yaradır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sözləri ilə desək, "buraya qədəm qoyan hər bir insan əsrlərin nəfəsini hiss edir".

Qəbələ festivalı xarici qonaqlara Azərbaycan mədəniyyətini tanıtmaqla yanaşı, çoxsaylı musiqisevərləri dünya bəstəkarlarının klassik əsərləri ilə və məşhur musiqiçilərlə yaxından tanış edir. Bu festival həm də böyük maarifçilik missiyası daşıyır. İndi dünyanın hər yerindən Qəbələnin səsi-sorağı gəlir. Bu füsunkar diyarda səsləndirilən musiqilər Azərbaycan xalqının nə qədər yüksək mədəniyyətə malik olduğunu dünya xalqlarına bəyan etdi. Azərbaycan milli mədəniyyəti Qərb dünyasına tanıdıldı.

Sentyabrın üçüncü ongünlüyünün ilk günlərində İtaliyada, qədim Romada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri"nə dair konfransda İtaliya Respublikası Senatının sədri Maria Elisabetta Alberti Kasellati çıxışında ölkələr və xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyətindən danışaraq Qərb ilə Şərq arasında körpü rolunu oynayan, Avropa İttifaqının önəmli tərəfdaşı, İtaliyanın tarixi dostu olan Azərbaycanın bu istiqamətdəki rolunu xüsusi vurğulamışdır.

Bu günlərdə Bakıda 45 ölkəni təmsil edən 220-dən çox qonağın iştirakı ilə keçirilən Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forumu da xalqlararası dostluq əlaqələrinə yeni çalarlar qatıb. Forum dünyanın müxtəlif yerlərindən gəlmiş gənc liderlərin və əlavə olaraq daha yaşlı 100 liderin iştirakı ilə beş gün yüksək səviyyədə davam etmişdir. Tədbirdə qonaqlarla yanaşı, ölkəmizin çoxsaylı nümayəndə heyəti də iştirak etmişdir. Dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan bu forumun iştirakçıları və qonaqlar asudə vaxtlarında Bakının görməli yerlərini gəzmiş, İçərişəhərdə, Qız qalasında, Şirvanşahlar sarayında, Sahil bağında, Bayraq meydanında və s. tarixi yerlərdə olmuşlar. Forum iştirakçıları olan əcnəbi gənclər mətbuata verdikləri müsahibələrdə və açıqlamalarda Bakıya olan heyranlıqlarından, burada çoxlu dostlar tapdıqlarından və ölkəmizə yenidən qayıtmaq arzusunda olduqlarından ağızdolusu danışmışlar. Öz ölkələrinə döndükdən sonra ailələrinə, həmyaşıdlarına Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və ənənələrə malik dövlət olması haqqında, Bakının gözəlliyi və insanların qonaqpərvərliyi barədə söhbət açacaqlarını, hətta gələcəkdə dostlarıyla buraya yenidən turist kimi gələcəklərini bildirmişlər.

Qürur hissi ilə deyə bilərik ki, ölkəmizə maraq göstərən turistlərin sırasında Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq tədbirlərin rolu böyükdür. İki-üç günlüyə Bakıda, Naxçıvanda, Gəncədə və ya Qəbələdə keçirilən tədbirin iştirakçısı olan xarici ölkə vətəndaşları qısa müddətdən sonra ölkəmizə turist kimi gəlirlər.

Dünyanın nəbzi elə vurur ki, turizmin inkişafında, xalqlar arasında dostluq əlaqələrinin yaranmasında nəinki respublikamızda keçirilən beynəlxalq mədəni-kütləvi tədbirlər, eləcə də neft-qaz sənayesi, kənd təsərrüfatı, ağır və yüngül sənaye sahələrinə dair görüşlər, bağlantılar, sərgilər, yeni açılan aviareyslər, dünya standartlarına uyğun yaradılan dəmir yolları və magistral yollar da Azərbaycanın tanınmasında, yaranan münasibətlərin sonradan dostluq əlaqələrinə çevrilməsində mühüm rol oynayır. Bunu dünya mətbuatından da müşahidə etmək mümkündür. Məsələn, bu günlərdə Kolumbiyanın "Diario la Economia" xəbər portalında gedən "Qafqazın incisi Azərbaycan turizmə və investisiyalara dəvət edir" sərlövhəli məqalədə müəllif Kolumbiya ilə Azərbaycan arasında geniş iqtisadi əlaqələrin potensialından bəhs edərək bildirir ki, Bakı ilə Boqota arasında aviareyslərin açılması ticarəti fəallaşdırmağa, hər iki ölkənin xalqları arasında dostluq münasibətlərini möhkəmləndirməyə kömək edəcək.

Bu cür misalları istənilən qədər nümunə göstərmək olar. Görünən odur ki, istər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda keçirilən beynəlxalq tədbirlər xalqlar arasında dostluğu möhkəmləndirir, sülhə və mehribanlığa münbit şərait yaradır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Turizm sərgisində Azərbaycan pavilyonu böyük maraqla qarşılanıb

Pakistanın Kəraçi şəhərindəki Expo Mərkəzində "Pakistan Travel Mart" turizm sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgidə Pakistan, Malayziya, Vyetnam, Şri-Lanka, Tailand, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, İran, Səudiyyə Ərəbistanı və digər ölkələri təmsil edən bir sıra turizm, sığorta şirkətləri, hotellər, aviaşirkətlər öz xidmətlərini nümayiş etdiriblər.

Azərbaycanın Pakistandakı səfirliyinin əməkdaşlarının da qatıldığı sərgidə ikinci böyük heyətlə iştirak edən ölkəmiz ilk dəfə olaraq Azərbaycan Turizm Assosiasiyası (AZTA) və 18 müxtəlif turizm şirkəti və hotel nümayəndələrindən ibarət 30 nəfərlə təmsil olunub.

Azərbaycanı təmsil edən şirkətlərin stendləri iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. AZTA-nın üzvləri Azərbaycana aid stendlərlə maraqlanan hər bir iştirakçıya ölkəmizin turizm sənayesində müşahidə olunan inkişaf, ildən-ilə artan turist axını, eləcə də ölkədə hökm sürən sabitlik və təhlükəsizlik şəraiti barədə geniş məlumat veriblər.

Sərgi çərçivəsində müxtəlif mövzularda konfranslar və beynəlxalq forum da təşkil olunub. Tədbirlərdə və Pakistanın Xeybər-Paxtunxva və Gilgit-Baltistan əyalətlərinin turizm üzrə nazirlərinin iştirakı ilə təşkil edilmiş şam yeməyində çıxış edən Azərbaycan nümayəndələri təşkilatçılara öz təşəkkürlərini çatdırıb, ölkəmizdə xüsusən son illərdə turizm sahəsində əldə olunan inkişafı və ölkəyə gələn turistlərin sayındakı ciddi artımın olduğunu vurğulayıblar.

Forumda iştirak edən Pakistanın Sind əyalətinin təhsil, mədəniyyət və turizm naziri Azərbaycanda turizm sektorunda əldə olunmuş inkişafı və həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

Sərgidə iştirakçılara səfirliyimizin Azərbaycan və turizmə aid hazırladığı bukletlər, eləcə də ATA-nın və turizm şirkətlərinin müxtəlif təbliğat materialları paylanılıb.

Məlumat üçün bildirək ki, son iki ildə Pakistandan ölkəmizə gələn turistlərin sayında 8 dəfədən çox artım müşahidə edilib.

# İstanbulda III Beynəlxalq Türk Dünyası Sənədli Filmlər Festivalının qala gecəsi və mükafatlandırma mərasimi keçirilib

İstanbulda III Beynəlxalq Türk Dünyası Sənədli Filmlər Festivalının qala gecəsi və mükafatlandırma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Türk Dünyası Qəzetçilər Federasiyasının təşkilatçılığı ilə "Səkkiz ölkə, səkkiz şəhər!" devizi altında keçirilən festivalın münsiflər heyətinin sədri görkəmli Azərbaycan kinorejissoru Vaqif Mustafayevdir.

Vaqif Mustafayevin sədrliyi ilə münsiflər heyətinin müəyyən etdiyi qaliblər elan olunub.

Təşkilat komitəsinin məlumatına görə, festivala Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin kino idarəsi və 11 universitet dəstək verib. Festivala ümumilikdə 8 ölkədən 140 film təqdim olunub. Finala 12 peşəkar, 12 tələbə tərəfindən çəkilmiş 24 film seçilib.

Türk dünyasını təmsil edən görkəmli rejissorların, aktyorların, mədəniyyət xadimlərinin, ziyalıların iştirak etdikləri mərasim Türkiyənin dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Sonra Türk Dünyası Qəzetçilər Federasiyasının sədri, festivalın təşkilat komitəsinin sədri Menderes Dəmir çıxış edib. Festivalın məqsəd və vəzifələrindən danışan M.Dəmir Vaqif Mustafayevin sədrlik etdiyi münsiflər heyətinin fəaliyyətini xüsusi qeyd edib. O deyib ki, qaliblərin seçilməsində peşəkarlıq və ədalətli yanaşma əsas meyar olub.

Çıxışında indiyədək müxtəlif ölkələrdə keçirilən bir çox festivallarda münsiflər heyətinə sədrlik etdiyini söyləyən kinorejissor Vaqif Mustafayev ilk dəfədir ki, türk dünyasının festivalında iştirak etdiyini diqqətə çatdırıb. O, festivalın əhəmiyyətini və münsiflər heyətinin fəaliyyətini yüksək qiymətləndirib.

Vaqif Mustafayev qeyd edib ki, festivala təqdim olunan filmlər yüksək peşəkarlıqla çəkilmiş ekran əsərləridir. Münsiflər heyəti qalibləri müəyyən etmək üçün ədalətli, obyektiv mövqe sərgiləyib. O, türk dünyasının kinosunun bugünkü səviyyəsini göstərən bu filmlərin tamaşaçılar tərəfindən bəyəniləcəyinə inandığını bildirib.

Daha sonra Vaqif Mustafayevin ümummilli lider Heydər Əliyev haqqında çəkdiyi "Heydər" bədii filmindən videoçarx nümayiş etdirilib, kinorejissorun bioqrafiyası təqdim olunub.

Maraqlı bədii hissə ilə davam etdirilən mərasim qaliblərin mükafatlandırılması ilə başa çatıb.

Məlumat verilib ki, qalib seçilən filmlər Bakı, İstanbul, Lefkoşa, Bişkek, Daşkənd, Skopye, Sarayevo, Almatı şəhərlərində nümayiş olunacaq.

Mərasim çərçivəsində həmçinin türk dünyasının tarixini, mədəniyyətini, adət-ənənələrini, problemlərini əks etdirən fotosərgi nümayiş etdirilib. Sərgidə Xocalı soyqırımı ilə bağlı orijinal fotolar da yer alıb.

# Paşinyan "repressiya maşını"nı işə saldı

*Sabiq prezidentlərə yaxın olan iş adamları tədricən sıradan çıxarılır*

Ermənistanda növbədənkənar parlament seçkiləri ətrafında iqtidar və müxalifət arasında yaranan ziddiyyətlər getdikcə dərinləşməkdə, buna paralel olaraq tərəflərin bir-birinə yönəlik qarşılıqlı ittihamları da artmaqdadır. Proseslərin gedişi bu qənaətə gəlməyə əsas verir ki, baş nazir Nikol Paşinyan rəqiblərini sıradan çıxarmaq üçün artıq repressiv metodlardan istifadə edərək onların birləşməsinin qarşısını almaq və beləliklə, seçkilərlə bağlı məqsədlərinə nail olmaq niyyətindədir. Bunun üçün o, hazırda rəqib düşərgənin maliyyə dayaqlarını sarsıtmağı əsas hədəflərdən biri kimi müəyyən edib.

## Vəziyyət yenidən gərginləşir

Elə bundan irəli gəlir ki, Robert Koçaryan və Serj Sarksiyana yaxın olan iş adamları artıq tədricən sıradan çıxarılır. Buna konkret sübut kimi "H2" telekanalının rəhbəri, "Toyota Yerevan" mərkəzinin və digər böyük şirkətlərin sahibi, erməni biznesmen Samvel Mayrapetyanın həbsini göstərmək olar.

Erməni mediasının yaydığı məlumata görə, Mayrapetyanın həbsi Ermənistanın ikinci prezidenti Robert Koçaryana qarşı açılan cinayət işi ilə əlaqədardır. Belə ki, Mayrapetyan Koçaryanın yaxın ətrafına daxildir. Xatırladaq ki, Robert Koçaryan hələ də 2008-ci il martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və ölkədə konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində, həmçinin maliyyə maxinasiyaları və pulların yuyulmasında ittiham olunur.

Qeyd olunur ki, Koçaryanın maliyyə maxinasiyalarının üzə çıxarılmasında dəlillər sarıdan məhdudiyyətlə üzləşən Nikol Paşinyan daha çox informasiya əldə etmək üçün sabiq prezidentin yaxın ətrafı və biznes ortaqlarına qarşı təzyiq və təhdidlər üsuluna keçib. Belə vəziyyətdə narahat olanlardan biri də Robert Koçaryanın ortağı sayılan "Çiçəklənən Ermənistan" Partiyasının lideri, erməni oliqarx və milyonçu Haqik Tsarukyandır.

## Tsarukyan Koçaryanla birləşir

Özünə qarşı yaranan təhdidləri aydın görən Tsarukyan Paşinyana qarşı hərəkətə keçib. "Jamanak" qəzeti yazır ki, Tsarukyan artıq növbədənkənar seçkilərdə geniş tərkibli blokla iştirak üçün parlamentdənkənar siyasi qüvvələrlə intensiv danışıqlar aparmağa hazırlaşır. Bildirilir ki, Tsarukyan bu qüvvələri onunla birgə növbədənkənar seçkiyə getməyə razı salmağa çalışacaq: "Haqik Tsarukyanın özünə müttəfiq kimi baxdığı qüvvələr arasında İrs Partiyası, Erməni Milli Konqresi Partiyası, Erməni Ümummilli Konqresi, Andrias Qukasyan, Samvel Babayan, keçmiş müdafiə naziri Seyran Ohanyan və başqaları kimi tanınmışlar olacaq. Tsarukyan həmçinin "Sasna Tsrer" Partiyasının əməkdaşlıqla bağlı təklifini də nəzərdən keçirməyi planlaşdırır. Çünki həmin qruplaşmanın bir çox üzvləri həbsdən məhz "Tsarukyan bloku" və şəxsən Haqik Tsarukyanın verdiyi zəmanət nəticəsində azad olunublar".

"Jamanak" onu da yazır ki, Tsarukyan Robert Koçaryanın bir nömrəli biznes ortağıdır və siyasi meydanda da onunla birləşməyi düşünür. Bütün bunlar Ermənistanda ictimai-siyasi müstəvidə gərginliyin davam edəcəyini göstərir.

## Deputat deputatı güllələdi və sonra intihar etdi

Belə bir vaxtda diqqət çəkən başqa məqamlardan biri də odur ki, siyasi proseslərin çözümündə kriminal əməllərdən istifadə cəhdləri də artır. "Çiçəklənən Ermənistan" Partiyasından keçmiş deputat Karo Karapetyanın güllələnməsi bunun növbəti təsdiqi sayılır. Karo Karapetyan 2007-ci və 2012-ci illərdə Ermənistan Milli Məclisinə seçilib. 2017-ci ildə mandatının müddəti bitib.

Ermənistanın İstintaq Komitəsi oktyabrın 6-da axşam saatlarında Yerevan restoranlarından birində Karo Karapetyanın güllələnməsinə dair rəsmi məlumat yayıb. Məlumata əsasən, saat 22 radələrində Yerevanın mərkəzindəki "Hayginer" restoranında münaqişə baş verib. Nəticədə eks-deputat Karapetyan və daha bir nəfər güllə yarası alıb: "Karapetyan xəstəxanaya aparılarkən yolda keçinib. Odlu silah yarası alan Sarkis Avaqyan tibb mərkəzinə çatdırılıb, onun üzərində cərrahiyə əməliyyatı aparılıb".

Məlumat üçün bildirək ki, Karo Karapetyan "Yuvetsi Karo" ləqəbi ilə tanınır və erməni KİV-nin yazdığı kimi onun parlament fəaliyyətinə heç bir dəxli olmayıb. Bizneslə məşğul olub və tez-tez kriminal xronikanın qəhrəmanına çevrilib. Əvvəllər polisdə yüksək vəzifə tutan Karapetyan 2009-cu ildə həmkəndlisi Artur Zadoyana bir neçə dəfə atəş açıb, bundan əvvəl isə onu döyüb. Lakin işi necə fırladıblarsa, Karapetyan zərərçəkmiş kimi tanınıb, Zadoyana isə cinayət işi açıblar. Sonda iş bağlanıb. Amma bu dəfə Karapetyan daha kəskin şəkildə hədəf kimi qoyulub.

Yerevan polisindən bildiriblər ki, əməliyyat-axtarış tədbirləri sayəsində şübhəlini müəyyən etmək mümkün olub. Hadisə yerində cinayətkarın atəş açdığı tapança və boş gilizlər tapılıb. Media yazır ki, Karapetyanı güllələyən elə onun öz həmkarı, "Karameli Arut" ləqəbli Arutyun Qaragözyandır. O da deputat olub. Arutyun Qaragözyan da kriminal keçmişə malikdir, məlumatlara görə iki keçmiş deputat arasında əmlak mübahisəsi yaranıb və onlar məsələni həll etmək üçün restoranda görüşüblər. Və "Karameli Arut" öz həmkarına atəş açıb. Lakin erməni mediası prosesdə siyasi çalarların olmasını da istsina etmir. Daha bir maraqlı məqam odur ki, həmkarını güllələyən Qaragözyan sonradan intihar edib. Belə ki, Yerevanın Davitaşen rayonundakı daş emalı sexlərindən birində Qaragözyanın cəsədi aşkarlanıb. Onun odlu silahdan açılan atəş nəticəsində öldüyü müəyyən olunub, cəsədin sağ əlində tapança aşkarlanıb. Polisdən bildirildiyinə görə Qaragözyanın intihar etdiyi ehtimal olunur.

Media yazır ki, əslində, Ermənistan parlamentində yer alanların bir çoxu cinayət aləmində yaxşı tanınır və bu qəbildən olan hadisələrin bundan sonra da baş verməsi tamamilə gözləniləndir. Belə vəziyyət həm də siyasətə kriminal elementlərin gəlməsinə rəvac verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi "Elektron Kitabxana" sisteminin satın alınması ilə bağlı

*tender elan edir*

Tender təklifləri Bakı şəhəri, Xocalı prospekti, 30 ünvanında 23.11.2018-ci il tarixdə Bakı vaxtı ilə saat 15:00-da Tender komissiyası tərəfindən açılacaqdır.

Tenderdə fəaliyyəti Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə zidd olmayan şirkətlər iştirak edə bilərlər.

Tenderdə iştirak edən bütün iddiaçılar əsas şərtlər toplusunu və şərtlər toplusu sənədləri ilə bağlı əlavə məlumatları aşağıda göstərilən əlaqələndirici şəxsdən ala bilərlər:

Əlaqələndirici şəxs - Səbuhi Məmmədov - rəhbərlik yanında aparatda böyük mühəndis.

Tel: (012) 521-00-00 (33012)

İddiaçıların ixtisas göstəricilərinin qiymətləndirilməsi və müqayisəsində şərtlər toplusu sənədlərində nəzərdə tutulmuş meyarlara üstünlük veriləcəkdir.

**İddiaçılar Tender komissiyasına aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyətini əks etdirən bank arayışı;*
- *iddiaçının son üç il ərzində xüsusiyyətinə və həcminə uyğun analoji işlər üzrə təcrübəsini və ixtisas göstəricilərini təsdiq edən sənədləri;*
- *iddiaçının hüquqi statusunu təsdiq edən sənədlərin notarial qaydada təsdiq edilmiş nüsxələri (nizamnamə, qeydiyyat şəhadətnaməsi və s.);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərinin olmaması haqqında arayış;*
- *tender təklifi;*
- *tender təklifinin 1 faizi dəyərində bank təminatı.*

İddiaçılar tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə) və iştirak haqqının ödənilməsi barədə bank sənədini digər sənədlərlə birlikdə 14.11.2018-ci il saat 18:00-dan gec olmamaq şərti ilə təqdim edərək tender üzrə əsas şərtlər toplusunu əldə edir, bank təminatı ilə birgə öz tender təklifini isə 21.11.2018-ci il saat 18:00-dan gec olmamaq şərti ilə aşağıdakı ünvana təqdim etməlidirlər:

**Bakı şəhəri, Xocalı prospekti, 30.**
**Tel: (012) 521 33 63**

Gecikmiş tender təklifləri Tender komissiyası tərəfindən qəbul edilmir və açılmadan geri qaytarılır. Tender komissiyası gecikmiş tender təklifləri üzrə heç bir məsuliyyət daşımır.

İddiaçılar bütün texniki həll, icra müddəti, qiymət (vergilər və digər rüsumlar daxil olmaqla), ödəniş qaydaları (qrafiki) və digər mühüm şərtləri öz tender təkliflərində əks etdirməlidirlər.

Tender təklifi iddiaçı tərəfindən imzalanmalı, möhürlənməli, 1 (bir) əsli və 1 (bir) surəti olmaqla 2 (iki) nüsxədə ikiqat zərfin içinə qoyularaq təqdim edilməlidir. Zərfin üzərində aşağıdakı qeyd yazılmalıdır:

- "Elektron Kitabxana" sisteminin satın alınması tenderi üzrə təklif
- 23.11.2018-ci il saat 15:00-dək açılmamalıdır

İddiaçılar tender təklifinin qəbulu ilə əlaqədar və əlavə məlumat almaq üçün Tender komissiyasına qanunvericilik ilə müəyyən olunmuş müddət ərzində müraciət edə bilərlər.

Bütün iddiaçılar tenderin əsas şərtlər toplusunu yuxarıda qeyd edilən ünvandan əldə edə bilərlər. İddiaçılar əsas şərtlər toplusunu və iştirakçı statusunu almaq üçün 300 manat iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürməlidirlər:

**Ünvan: Bakı ş., Xocalı prospekti, 30, Bakı Ali Neft Məktəbi**
**Telefon: (012) 521 33 63**
**Faks: (012) 521 33 64**
**Email: info@bhos.edu.az**
**Hesab №: AZ18IBAZ38090019443005117215**
**VÖEN: 2002347701**
**Bank : Azərbaycan Beynəlxalq Bankı (Xətai filialı)**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

***Tender komissiyası***

# Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi olub

Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Olimpiadanın açılış mərasimi paytaxtın mərkəzi küçələrinin birində - 9 iyul prospektində təqribən 200 mindən çox insanın iştirakı ilə Olimpiya oyunları tarixində ilk dəfə olaraq idman festivalı çərçivəsində təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Olimpiadanın Təşkilat Komitəsi açılış mərasimini bu formatda keçirməklə kütləvilik baxımından həm Oyunların, həm də Olimpiya hərəkatının təbliğinə və inkişafına böyük töhfə verib. Buenos-Ayresin mərkəzi küçələrinin birində keçirilən açılış mərasimini 200 mindən çox insanın canlı olaraq, əsasən öz ailə üzvləri ilə birlikdə izləməsi də bu möhtəşəm tədbirin əhəmiyyətini xüsusilə artırıb.

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak edən ölkələrin milli bayraqları milli komandaların müşayiəti ilə təntənəli şəkildə tribuna önündən aparılıb. Azərbaycan Respublikasının Dövlət bayrağını boksçumuz Nurlan Səfərov daşıyıb.

Olimpiadanın açılış mərasimində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax çıxış edərək bu Oyunların əhəmiyyətini qeyd edib və yeniyetmə idmançılara yarışlarda uğurlar arzulayıb. Argentinanın məşhur idmançıları Pedro İbarra və Sesilia Karrantsa Olimpiya məşəlini 1936-cı ildə şəhərin 400 illiyi münasibətilə inşa edilmiş və yerli sakinlər tərəfindən El Obelisco adlandırılan abidənin önündə alovlandırıblar. Argentina Prezidenti Maurisio Makri Oyunları açıq elan edib və möhtəşəm açılış mərasimi maraqlı proqramlarla davam edərək başa çatıb.

Yeniyetmələrin III Yay Olimpiya Oyunları Beynəlxalq Olimpiya Komitəsinin dəstəyi və himayəsi ilə 14-18 yaşlı idmançılar arasında keçirilir. Azərbaycan idmançıları bu Oyunlarda ilk gündən - 2010-cu ildən iştirak edir. 2010-cu il avqustun 14-dən 26-na kimi Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya Oyunları yeniyetmə idmançıların, idmansevərlərin yaddaşında həmişəlik qalıb. İdman və Olimpiya Oyunlarının tarixinə qızıl hərflərlə yazılan bu olimpiadada yeniyetmələr dostluq, qardaşlıq, bir-birinə hörmət, məhəbbət nümayiş etdiriblər. Onlar bir daha sübut ediblər ki, idman ayrı-ayrı xalqların, dövlətlərin arasında sülh, əməkdaşlıq, mehriban münasibət yaradan bir qüvvədir.

Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında isə 206 ölkədən 3998 idmançı 32 idman növündə qüvvəsini sınayır. Yarışların keçirilməsi əsasən dörd ərazi - Urban, Yaşıl, Teknopolis və Olimpiya parkları üzrə planlaşdırılıb. Azərbaycan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 17 idmançı ilə təmsil olunur. Yarışların ilk günü yeniyetmə idmançılarımız cüdo, stolüstü tennis, taekvondo, idman gimnastikası üzrə yarışlarda qüvvələrini sınayıblar. Əvvəlcə cüdoçularımız Vüsalə Kərimova (44 kq) və Vüqar Talıbov (66 kq) rəqibləri ilə münasibətlərinə aydınlıq gətiriblər. Vüsalə Kərimova son nəticədə yarışları 7-ci yerdə başa vursa da, Vüqar Talıbov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Yarışları Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer və digər rəsmi şəxslərlə yanaşı, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov da izləyiblər.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

## İnterpolun başçısı tutuldu



Çində saxlanılan və korrupsiyada ittiham olunan İnterpolun prezidenti Men Xunvey təşkilatın baş katibliyinə istefa ərizəsi göndərmişdir. İnterpolun məlumatında deyilir ki, ərizə Fransanın Lion şəhərində yerləşən katiblikdə baxıldıqdan sonra qüvvəyə minmişdir.

Təşkilatın qaydalarına görə, prezidentin səlahiyyətlərini baş vitse-prezident, Cənubi Koreyanı təmsil edən Kim Çon Yan icra edəcək. İnterpolun yeni başçısı 18-21 noyabrda BƏƏ-də Baş Assambleyanın sessiyası çərçivəsində seçiləcək.

İnterpolun Fransada yaşayan başçısının yoxa çıxması barədə oktyabrın 5-də məlumat verilmişdi. Bundan sonra məlum olmuşdu ki, Men Xunvey Pekində saxlanmışdır. Çin hökumətinin məlumatına görə, o, korrupsiya və bir sıra digər cinayətlərdə, o cümlədən rüşvətxorluqda ittiham edilir.

Çin Kommunist Partiyasının intizamın yoxlanması üzrə mərkəzi komissiyası bildirmişdir ki, Men Xunvey barəsində qanun pozuntusu ilə əlaqədar təhqiqat aparılır.

## Braziliya Prezidenti ikinci turda seçiləcək



Srağagün Braziliyada prezident seçkiləri keçirilmişdir. Ali Seçki Məhkəməsinin məlumatına görə, Sosial-Liberal Partiyasının ifrat sağçı namizədi Jair Bolsonaru birinci turda 47,60 faiz səslə liderdir. Onun ən yaxın rəqibi, Zəhmətkeşlər Partiyasının namizədi Fernandu Addad 27,24 faiz səs toplamışdır. Beləliklə, Braziliyanın yeni lideri oktyabrın 28-də bu iki namizədin iştirakı ilə seçkilərin ikinci turunda müəyyənləşəcək. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Üçüncü yerdə 12,37 faiz səslə Demokratik Fəhlə Partiyasının namizədi Siru Qomes qərarlaşmışdır. Sosial-demokratların təmsilçisi Jeraldu Alkmin cəmi 4,88 faiz səs toplamışdır.

## Floridada fövqəladə vəziyyət elan olundu



ABŞ-ın Florida ştatının hakimiyyət orqanları "Maykl" tropik qasırğasının güclənməsi ilə əlaqədar 67 rayonun 26-da fövqəladə vəziyyət elan etmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Ştatın qubernatoru Rik Skottun saytında dərc olunmuş müraciətdə deyilir: "Qubernator Skott fövqəladə vəziyyət elan etməklə zəmanət verir ki, ştat və yerli hökumət bu qasırğaya hazırlaşmaq üçün kifayət qədər vaxt və resurs alacaq".

ABŞ Milli Qvardiyasının 500 üzvü qasırğanın vuracağı rayonlarda planlaşdırma, logistika və təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına hazırlıq işlərində kömək edəcək. Bundan əlavə, Florida Milli Qvardiyasının 5500 üzvü də zərurət yaranacağı halda səfərbərliyə hazırdır.

ABŞ-ın qasırğaların izlənməsi üzrə milli mərkəzi xəbər verir ki, hazırda "Maykl" Meksikanın Konsumel adasının 170 kilometr cənub-şərqində və Kubanın 230 kilometr cənub-qərbindədir. Küləyin maksimal sürəti saatda 95 kilometrdir. Qasırğa saatda 7 kilometr sürətlə şimala doğru hərəkət edir.

## Bağdadda beş partlayış

İraqın paytaxtı Bağdadın müxtəlif rayonlarında baş vermiş beş partlayış nəticəsində azı 3 nəfər həlak olmuş, 12 nəfərdən çox adam yaralanmışdır. Bu barədə "əl-Suməriyyə" telekanalı xəbər verir.

Məlumata görə, srağagün axşam paytaxtın şimalında Səba Əbkər rayonunda "Toyota Coaster" mikroavtobusuna qoyulmuş partlayıcı qurğu işə düşmüşdür. Nəticədə 5 nəfər yaralanmışdır.

Bundan əlavə, Bağdadın cənubunda Əbu Dəşir rayonunda partlayıcı qurğunun detonasiyası zamanı 2 nəfər həlak olmuş, bir neçə adam yaralanmışdır.

Paytaxtın şimalında, Malik Əştər meydanının yaxınlığında partlayış nəticəsində bir nəfər həlak olmuş, bir nəfər yaralanmışdır.

İki nəfər şəhərin şimalında, Şüalə rayonunda, 4 nəfər isə paytaxtın cənubunda, Rəşid rayonunda yük maşınlarının partladılması zamanı xəsarət almışdır.

## Bosniya və Herseqovina Rəyasət Heyətinin yeni üzvləri bəlli oldu

Bosniya və Herseqovinada keçirilmiş ümumxalq seçkilərində ilkin nəticələr elan edilmişdir. Rəyasət Heyətində Şəfiq Cəfəroviç boşnakları təmsil edəcək. Demokratik Cəbhənin lideri Jelko Komşiç xorvatların təmsilçisi seçilmişdir. Müstəqil Sosial-Demokratlar İttifaqının rəhbəri Milorad Dodik Rəyasət Heyətində serbləri təmsil edəcək. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Bosniya və Herseqovina Rəyasət Heyəti dövlət başçısı vəzifəsinə analoji olan icra hakimiyyətinin kollektiv ali orqanıdır. Konstitusiyaya görə, Rəyasət Heyətində üç nəfər - boşnak, serb və xorvat təmsil olunmalıdır. Seçkilərdə 15 nəfər namizədliyini irəli sürmüşdü.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 18 avqust, 4 sentyabr, 26 sentyabr 2018-ci il tarixli saylarında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına sayğacların quraşdırılması üçün lazım olan mal-materialların satın alınması məqsədilə dərc edilmiş tenderin yetərsay olmadığı üçün tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı

**18 oktyabr 2018-ci il saat 16:00-a, təkliflərin açılışı isə**
**19 oktyabr 2018-ci il saat 16:00-a dəyişdirilmişdir.**

Əlaqələndirici şəxs: Satınalmaların təşkili və idarə olunması departamentinin satınalmaların idarə olunması şöbəsinin mühəndisi Ağaəli Mirzəyev agali.mirzeyev@azersu.az (431 47 67/2246).

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Aydın Heydərova həyat yoldaşı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Musa Urud, Qüdrət Həsənquliyev, İlham Məmmədov və Fazil Mustafa Aydın Heydərova həyat yoldaşı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin kollektivi iş yoldaşları
**LALƏ ÖMƏROVANIN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Seymur Aslanova anası
**ASYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektorluğu Prezident təqaüdçüsü, BDU-nun fəxri professoru
**QARA MUSTAFAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Kəmalə Hüseynovaya qardaşı
**İMRAN İSMAYILOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın müalicəvi bədən tərbiyəsi üzrə həkimi Nailə Məmmədovaya həyat yoldaşı
**CƏSUR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi məhkəmənin əməkdaşı Türkan Cabbarovaya anası
**ƏFİQƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi general-mayor Həsən Şirinova bacısı
**QƏLƏMZƏR ŞİRİNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Mətanət A" şirkətinin rəhbəri Elxan Başirov və şirkətin kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Həsən Şirinova bacısı
**QƏLƏMZƏR ŞİRİNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8407
Sifariş 2972